Günəş Şərqdən doğur!

№ 48 (5329), 2021-ci il

Qiymәti 40 qәpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 16 mart 2021-ci il (çərşənbə axşamı)



## Daha 376 nəfər koronavirusa yoluxub

101 nəfər sağalıb, 4 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 376 yeni yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## Tənha yaşadığından heç kimin xəbəri olmayıb

Zənglərə cavab verməyən məktəb direktoru evində ölü tapıldı



**Hadisə Xaçmaz rayonunun Alıcqışlaq kəndində baş verib.**

Alıcqışlaq ümumi orta məktəbinin direktoru 45 yaşlı Ülkər Vəliyəddin qızı Hacıyeva dəm qazından zəhərlənib və dünyasını dəyişib.

(Səh.9)

### Günün içindən...



## Hikmət Hacıyev:

“Reklam bazarı olmadan mediamızın sərbəst fəaliyyətini görə bilmərik”

Dünən “Zoom” platformasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və ayrı-ayrı KİV rəhbərlərinin görüşü baş tutub.

(səh.3)

## Qarabağ bəyanatını müzakirə etdilər




Ceyhun Bayramov ABŞ Dövlət Katibinin köməkçisi ilə telefonla danışıb

(səh.2)

# Füzuli şəhərindən əsər-əlamət qalmayıb



**Prezident: “Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?”**

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında oldular.**

Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi ”Instagram” səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərdən görüntülər paylaşıb.

(səh.2)

## Bakıda 3 məktəb distant tədrisə keçib

(səh.4)



## General Rövşən Əkbərov həbs edildi

(səh.2)

## Vilayət Quliyevin qızı vəfat edib

Humay Quliyevanın ölüm səbəbi hələlik məlum deyil

(səh.5)

## Azərbaycan Laçın dəhlizində post qurmalıdır

Ermənistan hərbçilərinin ərazilərimizə daxil olmasının qarşısı alınmalıdır

(səh.6)

## Hədəfə sadəcə 2 saniyə bəs edir

Türkiyənin yeni silahı dünyada böyük fərq yaradır

(səh.9)



## Şuşa fatehi Polad Həşimovun qisasını aldı

Ramil Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Laçında döyüşüb, Şuşada şəhid olub

(səh.8)

## Elcan Vətənə CAN oldu

Bütün döyüşlərin önündə gedən komandir silahdaşlarının da qəhrəmanına çevrilib

(səh.9)



# Füzuli şəhərindən əsər-əlamət qalmayıb

Prezident: "Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?"





Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar

**Dünən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Füzuli və Xocavənd rayonlarında olublar.**

Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində işğaldan azad olunmuş ərazilərə səfərdən görüntülər paylaşıb.

Füzuli şəhərində olan Azərbaycan Respubikasının Prezidenti İlham Əliyev deyib:

"Yenə azad edilmiş torpaqlardayıq. Füzulidən işğaldan azad edilmiş Xocavənd rayonuna gedirik.

Yol boyunca bütün yaşayış məntəqələrinin dağıdılmasının bir daha şahidi oluruq. Bütün kəndlər, şəhərlər tamamilə dağıdılıb. Özü də bu dağıntılar müharibədən sonra baş vermişdir. Birinci Qarabağ müharibəsi dövründə bu qədər dağıntılar olmamışdı, ola da bilməzdi. Məhz işğal dövründə mənfur düşmən bizim şəhərlərimizi bu hala salıb. Bura Füzuli şəhəridir. Amma şəhərdən əsər-əlamət qalmayıb. Şəhər yoxdur, dağıdılıb. Ermənilər dağıdıblar. Oğru kimi işğal dövründə gəlib, bizim binalarımızı söküb, binaların daşlarını, damlarını aparıblar. Oğru kimi, talançı kimi. Füzuli şəhərinin qalıqlarıdır.

Bu gün də Ermənistanı müdafiə edən xarici dairələr gözlərini açıb baxsınlar onların vəhşiliyinə. Onlar kimi müdafiə edirlər?"

**Dövlət başçısı sözünə əlavə edərək bildirib:** "Durduğumuz yer Xocavənd rayonunun Edilli kəndidir. Ora isə Ağbulaq kəndidir. Qəhrəman Azərbaycan Ordusu qədim Azərbaycan torpağını işğalçılardan azad edib. Burada döyüşlər gedib. Vuruşaraq, döyüşərək düşməni öz doğma torpaqlarımızdan qovmuşuq".

**Prezident qeyd edib ki, mənfur düşmən bir daşı daş üstə qoymayıb:**

"Otuz il torpaqlarımızı işğal altında saxlayan mənfur düşmən bir daşı daş üstə qoymayıb. Görün yollar nə gündədir. Bu yollar 30 il ərzində asfalt görməyib. Onların bütün təbliğatı yalandır. Bütün tarixi saxtadır. Özlərini dövlət adlandırırlar. Dırnaqarası Arsax dövləti. Cəhənnəmə getdi. Dövlət idisə, niyə daş daş üstə qoyulmayıb. Çünki bilirlər ki, torpaq onların torpağı deyil. Torpaq azərbaycanlıların torpağıdır. Bura işğaldan azad edilmiş Xocavənd rayonudur. Keçmiş Dağlıq Qarabağ Muxtar Respublikasının Hadrut rayonudur".

## Qarabağ bəyanatını müzakirə etdilər

### Ceyhun Bayramov ABŞ Dövlət Katibinin köməkçisi ilə telefonla danışıb




**Azərbaycan Respublikasının Xarici işlər naziri Ceyhun Bayramov ilə ABŞ-ın Avropa və Avrasiya məsələləri üzrə Dövlət Katibinin köməkçisi vəzifəsini icra edən Filip Riker ilə telefon danışığı baş tutub.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən Trend-ə verilən məlumata görə, tərəflər bölgədə mövcud olan vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq gündəliyinin müxtəlif məsələləri və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

## Brüsseldə görüşəcəklər

### NATO ölkələrinin xarici işlər nazirləri toplaşır

**Pandemiya başlayandan bəri ilk dəfə NATO ölkələrinin xarici işlər nazirləri 23-24 mart tarixlərində Brüsseldəki mənzil qərargahında görüşəcəklər.**

APA xəbər verir ki, bu barədə alyansın sözçüsü Oana Lunqesku "Twitter" səhifəsində yazıb. O bildirib ki, iclasa NATO-nun Baş katibi Yens Stoltenberq rəhbərlik edəcək.

*Qeyd edək ki, bundan əvvəl Qərb mediası ABŞ dövlət katibi Entoni Blinkenin NATO xarici işlər nazirlərinin toplantısında iştirak etmək və avropalı tərəfdaşları ilə danışıqlar aparmaq üçün Brüsselə gedəcəyini yazmışdı.*

## NATO-nun gəmiləri Gürcüstanın ərazi sularına daxil olub



**NATO-ya məxsus 4 hərbi gəmi Qara dənizdə Gürcüstanın ərazi sularına daxil olub.**

APA-nın yerli bürosunun xəbərinə görə, Türkiyə, İspaniya, Bolqarıstan və Rumıniyaya məxsus hərbi gəmilərin Gürcüstana səfərinin məqsədinin Gürcüstan və NATO hərbi dəniz qüvvələri arasında qarşılıqlı əməliyyat qabiliyyətini yüksəldilməsi məqsədi daşıdığı bildirilir.

Gürcüstan Sahil Mühafizə Xidmətinin məlumatına görə, NATO hərbi gəmiləri Gürcüstan Sahil Mühafizə Xidməti ilə birgə təlimlər də keçirəcək.

NATO gəmilərinin Gürcüstanın ərazi sularını martın 18-də tərk edəcəyi qeyd olunub.

## General Rövşən Əkbərov həbs edildi



**General-leytenant Rövşən Əkbərov həbs edilib. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, onun barəsində 4 aylıq həbs qətimkan tədbiri seçilib.**

Generalın hansı səbəbdən saxlanılması ilə bağlı hələlik məlumat yoxdur.

*Qeyd edək ki, R.Əkbərov Bakı və Şəmkir korpuslarının komandiri olub.*

# Fransa yol ayrıcındadır

## Avropa İttifaqı nüfuzdan düşür, uğur qazana bilmir

**Fransanın nüfuzlu "Le Figaro" nəşrində jurnalist Loran Erblenin Fransa və Avropa İttifaqı arasındakı münasibətlərə həsr olunmuş məqaləsi dərc olunub. Məqalədə Fransanın Aİ-dən çıxa biləcəyi qeyd edilir.**



Ona görə bəzi Avropa ölkələri Rusiya ilə əməkdaşlığa hazırlaşır

Müəllifin sözlərinə görə, pandemiya Avropa sənayesi və iqtisadiyyatının nə dərəcədə "yuxuya getdiyini" açıq şəkildə nümayiş etdirir: "Aİ danışıqları o qədər ləng aparır ki, bir çox ölkələr Çin və Rusiyadan vaksin almağa başlayıblar. İttifaq yalnız ələvə bürokratik strukturdur. O, heç zaman bizim maraqlarımıza cavab verə bilməz və əksinə, fəaliyyətimizi daha da iflic edir".

Bütün bunları nəzərə alaraq, müəllif Fransanın Aİ-dən çıxması prosesinin başlamasını real hesab etdiyini qeyd edib.

**Fransanın nə üçün Aİ-dən çıxmaq istədiyini "Şərq"ə açıqlayan "Tolerantlıq" Sosial Araşdırmalar İctimai Birliyinin sədri, politoloq Azər Rəşidoğlu bildirib ki, Aİ indi dünyada əsas söz sahibi olan geosiyasi güc sahibidir:** "Lakin son illər dünyada cərəyan edən proseslər bu təşkilatı çətin duruma salıb. Aİ ilə ABŞ və Rusiya arasında açıq rəqabət müşahidə edilir. Məsələn, "Şərq tərəfdaşlığı" layihəsi Avropa-Rusiya münasibətlərinin pozulması ilə sonuclanır.

Moskvanın postsovet məkanı da daxil olmaqla, dünyanın əksər regionlarında geosiyasi və hərbi fəallığını artırması ilə Aİ üçün "Şərq tərəfdaşlığı" layihəsini çətinləşdirib.

**Avropa İttifaqının "Şərq tərəfdaşlığı" ölkələri ilə əlaqələri inkişaf etdirmək istəyini bir daha bəyan etməsi tamamilə gözlənilləndir. Digər tərəfdən, Aİ bəzi Avropa ölkələrinin də müstəqil diplomatiyası üçün problemlər yaradır.**

Avropa ölkələrinin bəziləri Rusiya ilə əməkdaşlığa hazırlaşır. Aİ-nin uğurları və səmərəli siyasəti fonunda "Şərq tərəfdaşları" praqmatik əsaslarda, təntənəsiz və Rusiyanı qıcıqlandırmamaqla Avropaya daha da yaxınlaşa bilərlər. Aİ ilə daha yaxın əlaqələrə gedən Ukrayna, Gürcüstan və Moldova isə Rusiyadan uzaqlaşır.

Avropa ilə yaxınlaşmaqla bərabər Rusiya ilə münasibətləri də inkişaf etdirən Azərbaycan müstəqil balans siyasətini qoruya bilir. Rusiya iqtisadi, sosial, mədəni, hərbi və texnologiya istiqamətlərində ciddi inkişafa nail olarsa və Aİ ilə rəqabəti gücləndirərsə, 2030-cu ilə qədər "Şərq tərəfdaşlığı"nın iştirakçısı olan ölkələrdə öz nüfuzunu tam təmin edə bilər. Zəifləmiş Aİ isə bu istiqamətdə hər hansı uğura ümid edə bilməz.

Ukrayna parçalana bilər, Moldovada qütbləşmə dərinləşər, Belarus tam asılı vəziyyətə düşər, Ermənistan forpost olaraq qalar, Azərbaycan Rusiya ilə əlaqələrini daha da genişləndirər, Gürcüstan isə Amerikaya sığınmaqla özünü qorumağa çalışar. Aİ özü də müəyyən mənada Rusiyanın təsiri altına düşməkdədir. Bu kontekstdə "Şərq tərəfdaşlığı" Proqramı hazırkı anlamını və məzmununu itirir. Bununla da tərəfdaş ölkələrin Avropa arzusu başa çatır".

Politoloqun fikrincə, istisna deyil ki, yaxın gələcəkdə Avropa ölkələri arasındakı münasibətlərin ziddiyyətləri Aİ-ni bir qurum kimi dağıtsın:

"ABŞ, Türkiyə, Çin və İran üçün Aİ önəmsizdir. Bir sözlə, yeni dünya düzənində ciddi proseslər baş verir. Güclü təşkilatların dağılması da bu prosesin tərkib hissəsidir".

**Yeganə Bayramova**

# Qarabağa yük maşınlarında nə daşınır?

## “Arzuolunmaz kiçik detallar olsa da, onlar ümumi prosesə maneçilik törətmir”

Rusiya sülhməramlıları Kəlbəcər rayonuna 20 yük avtomobilindən ibarət 130 ton humanitar yükün çatdırılmasını təmin edib. Rusiya Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, sosial obyektlərin və yaşayış evlərinin enerji və su təminatı sistemlərinin bərpa olunması məqsədilə Rusiya Humanitar Reaksiya Mərkəzinin yeddinci karvanı da rayona çatdırılıb.




Vurğulanıb ki, yardım 10 noyabr tarixli saziş çərçivəsində Azərbaycan tərəfinə göstərilib. Ümumilikdə, Rusiya sülhməramlılarının köməyi nəticəsində indiyədək Azərbaycanın işğaldan azad edilmiş müxtəlif bölgələrinə 7 avtomobil karvanı ilə təxminən 1300 ton yük daşınıb. Məsələ ondadır ki, Qarabağdakı mövcud durum və Moskvaya münasibət bu cür yardımlara qarşı ictimaiyyətdə narazılıq yaradır. Daha doğrusu, ölkə ictimaiyyəti Rusiyanın bu qədər yük TIR-ları ilə Qarabağa sadəcə ”inşaat materialları” daşıdığını düşünmürlər. Yük maşınlarında separatçılara ”silah-sursat” daşındığı iddia edilir.

**Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri, beynəlxalq məsələlər üzrə mütəxəssis Əziz Əlibəyli ”Şərq”ə deyib ki, rəsmi Bakının Rusiya tərəfindən Azərbaycana daşınan yüklərə tam nəzarət etmək imkanı və hüququ var.** Analitik bildirib ki, əgər söhbət konkret 7 karvandan və 1300 ton yükdən gedirsə, onların tərkibi ilə bağlı Azərbaycanı məlumatlandırma proseduru mövcuddur: ”İctimaiyyətdə buna şübhə ilə yanaşılması başqa məsələdir. Nə qədər ki, Zəngəzur dəhlizi ilə bağlı məsələ yekunlaşmayıb, Qarabağ ətrafında müxtəlif spekulyasiyalar olacaq. Zəngəzur dəhlizinin reallaşması sadəcə problemin birdəfəlik həlli anlamına gəlmir. Eyni zamanda bütövlükdə Qarabağ mövzusunu gündəmdən çıxaracaq və mənasız daxili məsələyə çevirəcək. Bölgədə rusların təsirlərinin güclü qalması isə Rusiya-Türkiyə və Rusiya-Avropa münasibətlərində baş verən hansısa hadisənin dinamikliyindən asılıdır. Prosesə bu formada baxmaq lazımdır. Hazırda Qarabağda 50 min erməninin olduğu deyilir. Onların əksəriyyəti müharibə zamanı Qarabağı tərk edəndə yenidən qayıtmayacaqlarını düşünürdülər. Necə ki, digər ərazilərin işğaldan azad edilməsindən sonra orada süni məskunlaşdırılan ermənilər bir daha geri dönmədilər. Həmin prosesin Qarabağın dağlıq bölgəsində yaşanacağı da gözlənilirdi. Amma 10 noyabr razılaşmasına əsasən, ermənilərin kompakt yaşadığı ərazilərdə qalmasına icazə verildi”.

> “Rəsmi Bakının Rusiya tərəfindən Azərbaycana daşınan yüklərə tam nəzarət etmək imkanı və hüququ var”

**Ə.Əlibəyli əlavə edib ki, ötən müddət ərzində bölgədə müəyyən təxribatların şahidi olmuşuq:** ”Rusiya sırf humanitar məqsədlə yük daşımaları həyata keçirdiyini, ermənilərə yardım etdiyini bildirir. Nə dərəcədə səmimi olduqları, yük maşınlarında nə daşıdıqlarına gəldikdə isə ölkə Prezidenti böyük ölçüdə Rusiyanın fəaliyyətindən razılıq ifadə edib. Arzuolunmaz kiçik detallar olsa da, onlar ümumi prosesə maneçilik törətmir. İctimaiyyət arasında narahatlığın səbəbi başqadır. Əfsuslar olsun ik, informasiya məkanında erməni mediasından gələn bir dominantlıq var. Düşmən tərəfdə nə yazılırsa, dərhal ölkəmizdə gündəmə çevrilir. Adekvat olaraq həmin xəbər qarşısında çevik davrana bilmirik, bu da bir sıra hallarda ictimaiyyətin narahatlığına gətirib çıxarır”.

**İsmayıl Qocayev**




## Hikmət Hacıyev:

### “Reklam bazarı olmadan mediamızın sərbəst fəaliyyətini görə bilmərik”

**Dünən “Zoom” platformasında Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycan Respublikası Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev və ayrı-ayrı KİV rəhbərlərinin görüşü baş tutub.**

”Siyasi dialoqun Azərbaycan modeli” mövzusunda keçirilən iclasda bir sıra mühüm məqamlara toxunulub. H.Hacıyev, həmçinin medianın inkişafı istiqamətində zəruri yeniliklərdən danışıb: ”Media reyestrinin formalaşması prosesi öz işini görür. Bu barədə yeni media qanunvericiliyində də nəzərdə tutulub.

Vahid jurnalist vəsiqələrinin hazırlanması, hətta vahid jurnalist kartları ilə güzəşt və imtiyazların verilməsi bu prosesin tərkib hissəsi olaraq həyata keçirilir.

Həmçinin ölkəmizdə reklam bazarının liberallaşdırılması istiqamətində səylər göstərilir. Çünki sərbəst reklam bazarı olmadan mediamızın sərbəst fəaliyyətini görə bilmərik”.

**Kənan**

## Qarabağ münaqişəsi artıq tarixdir

### İndi Azərbaycan Avropa İttifaqı ilə əməkdaşlığa hazırdır



**Martın 12-də Xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında görüş baş tutub.**

Görüşdə C.Bayramov bölgədə mövcud olan cari vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, o cümlədən Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdləri, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib. Nazir həmçinin bölgədə həyata keçirilən quruculuq və bərpa prosesində Aİ-nin mümkün rolundan danışıb.

Xüsusi nümayəndə Toivo Klaar bölgədə sülhün qazanılması üçün birgə çalışmağın vacibliyini qeyd edib. Aİ-nin bölgədə sülh, təhlükəsizlik və tərəqqinin əldə olunması prosesini dəstəkləməyə hazır olduğunu vurğulayıb.

Tərəflər, eyni zamanda Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıblar.

**Görüşün əsas mahiyyətini ”Şərq”ə dəyərləndirən millət vəkili Asim Mollazadə bildirib ki, Azərbaycan Aİ ilə əməkdaşlığa tamamilə hazırdır:**

”Azərbaycan Qarabağ münaqişəsinə tarix kimi baxır. Ölkəmiz gələcəyə, bölgədə əməkdaşlıq sisteminin formalaşmasına, böyük qayıdışı təmin etməyə və bərpa işlərinin aparılmasına önəm verir.

Çünki erməni vandalları demək olar ki, daş üstündə daş qoymayıblar. Azərbaycan hər bir istiqamətdə Aİ ilə əməkdaşlığın tərəfdarıdır.

Bölgədə bərpa işləri, sabitlik və əməkdaşlıq mühitinin yaranmasında Aİ ilə birgə işlərin görülməsində maraqlıyıq”.

**Yeganə**

# Rusiya ilə başabaş gəlmək çətin olacaq

### Amma müharibə başlasa, Ukrayna Qərbdən dəstək alacaq

Ukraynanın cənub-şərqində 2014-cü ilin aprel ayından bəri Rusiyameyli qüvvələrlə Ukrayna ordusu arasında baş verən müharibə hələ də həllini tapmayıb. Donbas və Krım məsələsi öz aktuallığını qorumaqdadır. Martın 7-dən başlayaraq Ukrayna ordusu ilə "Donetsk Xalq Respublikası" və "Luqansk Xalq Respublikası" adlı qondarma respublikaların silahlı birləşmələri arasında şiddətli mövqe döyüşləri davam edir.



Ukrayna təxminən 90 minlik canlı qüvvəsini separatçı vilayətlərlə təmas xətti boyu cəmləşdirib. Separatçıların qüvvələri isə bundan üç dəfə azdır, üstəlik, texnikaları nasazdır, etibarlı hava hücumundan müdafiə sistemləri yoxdur. Ukrayna ordusunun arsenalında isə Qarabağ müharibəsində uğurla tətbiq edilən ”Bayraktar TB2” döyüş pilotsuz təyyarələri də var.

Bəzi ekspertlər hesab edir ki, Ukrayna tərəfi hərbi əməliyyatlarda işğalçıları məğlub edə bilər, lakin ciddi risklər var. Rusiyalı hərbi ekspert İqor Korotçenko da Ukraynadakı vəziyyətlə bağlı açıqlama verib: ”Mümkün Rusiya-Ukrayna müharibəsi zamanı Kiyev Türkiyədən adlığı SİHA və İHA-lardan fəal istifadə edəcək”.

Onun sözlərinə görə, son günlər Donbas bölgəsində toqquşmalar şiddətlənib və bu hadisələrin daha da pisləşəcəyini göstərir.

Yerli mənbələr türk pilotsuz uçuş aparatları bölgədə kəşfiyyat uçuşları həyata keçirdiyini yazır.

Qeyd edək ki, Ukrayna Silahlı Qüvvələrinin Baş komandanı Ruslan Komçak son açıqlaması zamanı vəziyyətin ağırlaşdığını ifadə edərək, əməliyyatlara hazırlaşdıqlarını elan edib. Rusiyanın Donbassdakı təmas qrupunun nümayəndəsi Boris Qrizlov da bölgədə vəziyyətin təhlükəli həddə çatdığını bildirib.

**Ukraynadakı durumu ”Şərq”ə şərh edən politoloq Elxan Şahinoğlu açıqlamasında deyib ki, vəziyyət getdikcə gərginləşir, atəşkəs intensiv pozulur:** ”Separatçılar təxribatlarından əl çəkmir, Rusiyadakı müəyyən mərkəzlərə güvənirlər. Rusiyanın keçmişdən Ukraynanı parçalamaq və daha çox ərazilər işğal etmək planı var. Lakin Ukrayna ordusu son 5 ildə güclənib. Azərbaycanın Ermənistan üzərində qazandığı qələbə Ukraynanı həvəsləndirib. Amerikadan və Türkiyədən müasir silahlar alıb”.

*Politoloq onu da qeyd edib ki, Ukraynanın qarşısında Rusiya dayanıb:* ”Rusiya ilə başabaş gəlmək çətin olacaq. Amma müharibə başlasa, Qərbdən dəstək alacaq. Ukraynanın Türkiyə kimi müttəfiqi yoxdur. Bizim Türkiyə kimi müttəfiqimiz var idi, müharibə dönəmində başlıca amil rolunu oynayırdı. Hər halda Ukrayna haqlı mübarizə aparır, Azərbaycan kimi bütövlüyünü təmin etməyə çalışır”.

**Aygün Tahirqızı**

# Vaşinqtonun məqsədi Ermənistanda sabitliyi qorumaqdır



*ABŞ dövlət katibi ilə Paşinyanın telefon danışığı Ermənistandakı son duruma həsr olunub*

**Ötən həftə ABŞ-ın dövlət katibi Endrü Blinkenlə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında telefon danışığı olub. Danışıqda Ermənistandakı daxili vəziyyətin, Qarabağ mövzusunun müzakirə edildiyi deyilib.**

Ekspertlərin fikrincə, Paşinyanla Blinken arasındakı telefon danışığı Ermənistan-Amerika münasibətlərinin səviyyəsində müəyyən enmə olmasına dəlalət edir. Dövlət katibi öz ölkəsinin Ermənistanda demokratik proseslərin və təsisatların inkişafına dəstəyini ifadə edib. Həmçinin, Ermənistanda "demokratik dəyərlərin inkişafı üçün" yardımların təyinatı haqqında danışıb. Xatırladaq ki, telefon danışığından bir neçə gün öncə Dövlət Departamenti İrəvandakı səfirliyi tərəfindən QHT-lər üçün 150 min dollara qədər vəsait ayırıb. Bu layihələrin bölgədə təhlükəsizliyin möhkəmləndirilməsinə və ermənilərin qonşularla dostluq münasibətlərini bərpa etməsinə yönəldiyi vurğulanır. Şübhəsiz, burada Türkiyə və Azərbaycanla münasibətlərin bərpası və qurulması da nəzərdə tutulur.

**Blinken və Paşinyan arasındakı telefon danışığını "Şərq"ə təhlil edən millət vəkili, ASDP sədri Asim Mollazadə bildirib ki, Ermənistanda vəziyyət gərgindir və mövcud qarşıdurma riski region ölkələri ilə yanaşı, uzaq dövlətlər tərəfindən də diqqətlə izlənilir. Deputatın sözlərinə görə, açıq sezilir ki, Ermənistanda hərbi cinayətkarlar, keçmiş rəhbərlər yenidən hakimiyyətə can atırlar:** "Ölkədə revanşist düşüncədə olanlar aktivləşib. Erməni xalqından dəstək ala bilmədikləri üçün Paşinyan hökumətini güc yoluyla, çevrilişə meyilli hərbçilər vasitəsi ilə həyata keçirmək istəyirlər. Əlbəttə, bu təşəbbüsün reallaşması bölgədə vəziyyətin yenidən gərginləşməsinə gətirib çıxarar və mövcud sazişin icrasına maneçilik törədər. Cənubi Qafqazda hərbi əməliyyatlar yenidən başlaya bilər. Reallıq isə odur ki, erməni əhalisi müharibə istəmir və "Qarabağ klanı"nı yaxına buraxmır. Düzdür, xalqın Paşinyan hökumətinə də etimadı, inamı çox deyil. Lakin qəti şəkildə yeni müharibənin və savaş tərəfdarı olan hərbi cinayətkarların əleyhinədirlər. Şübhəsiz, baş verənlər ABŞ tərəfindən də izlənilir. Nəzərə alaq ki, erməni lobbisi Amerika hökuməti üzərində ciddi təsirə malikdir. Erməni lobbisi həm Vaşinqtona, həm də Konqresə təzyiq göstərir ki, Ermənistanda baş verənlərlə bağlı mövqe bildirsinlər".

**Parlament üzvünün sözlərinə görə, "Qarabağ klanı"nın arxasında dayananlar faşist düşüncədə olan erməni diasporasıdır:** "Dövlət Departamenti Ermənistanın baş naziri ilə əlaqə saxlayaraq, ölkədəki vəziyyəti öyrənməyi, prosesləri müzakirə etməyi lazım bilib. Görünür, Vaşinqtonun əsas məqsədi Ermənistanda, dolayı yolla Cənubi Qafqazda stabilliyi qorumaqdır. Həqiqətən, Ermənistanın yeganə çıxış yolu daxildə və regionda sabitliyə xidmət etmək, qonşularla siyasi-iqtisadi əməkdaşlığı inkişaf etdirməkdir. Əks təqdirdə sosial-iqtisadi böhran çətin vəziyyətdə olan Ermənistanı tamamilə məhv edəcək".

**İsmayıl Qocayev**

## "Media strateji silahdır"

Prezidentin köməkçisi qazanılan uğurlarda medianın rolunu xüsusi qiymətləndirib



**"Azərbaycan mətbuatı dövlətimizin siyasətinin aparılmasında çox vacib bir silahdır".**

Bu sözləri Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev media kapitanları ilə "Siyasi dialoqun Azərbaycan modeli" mövzusunda keçirilən videokonfransda deyib.

**Prezidentin köməkçisi qazanılan uğurlarda medianın rolunu xüsusi qiymətləndirib:** "Media təkcə ölkə miqyasında yox, həm də beynəlxalq aləmdə güclü bir silahdır. Strateji silahdır. Bu gün Azərbaycan regionun aparıcı dövlətidir. Azərbaycan regionun geosiyasi mənzərəsini dəyişdi".

**Kənan**

## Bakıda 3 məktəb distant tədrisə keçib

**Bakıda 166, 248 və 258 nömrəli tam orta məktəblərin fəaliyyəti distant təhsil formasında davam etdiriləcək.**

Bu barədə "Şərq"ə Bakı Şəhəri üzrə Təhsil İdarəsindən məlumat verilib. Qeyd olunub ki, 166 nömrəli tam orta məktəbdə çalışan 2, 258 nömrəli tam orta məktəbdə çalışan 3, 248 nömrəli tam orta məktəbdə çalışan 7 müəllimin COVİD-19 infeksiyasına yoluxmaları təsdiq olunub. Bu səbəbdən Gigiyena və Epidemiologiya Mərkəzinin rəyi əsasında məktəblərdə əyani tədris prosesi 14 gün müddətinə distant təhsillə əvəz olunub.







# Ozamankı Ağdam yoxdur

## Baş redaktorlar gördüklərindən dəhşətə gəliblər

**Martın 13-də bir qrup media orqanı və QHT rəhbəri, blogerlər və ictimai fəalların işğaldan azad olunmuş Ağdama səfəri baş tutub. Onları Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev müşayiət edib.**

Nümayəndə heyəti Baş Qərvənd kəndində dəmiryol ətrafında minatəmizləmə prosesi, Ağdamda ermənilərin hərbi istehkamları ilə tanış olublar. Bununla yanaşı, səfərə Ağdam şəhəri ilə, o cümlədən tarixi, mədəniyyət abidələri ilə tanışlıq da daxildir.

Media nümayəndələrinin Ağdama səfəri Azərbaycan Prezidentinin təşəbbüsü ilə vətəndaş ziyarəti prosesinin başlanğıcı idi.

"Şərq" olaraq səfərdə iştirak edən media kapitanlarının Ağdamla bağlı təəssüratlarını öyrəndik.

**"Ayna-Zerkalo" qəzetinin təsisçisi və baş redaktoru Elçin Şıxlı Ağdamda sonuncu dəfə 27 il yarım öncə olduğunu deyib:**

"Həmin gün Ağdamın işğalı günü idi. Saat 3-də oradan çıxmışdıq, artıq 5-də Ağdam işğal olunmuşdu. Ozamankı Ağdam yoxdur. Səfər zamanı ordumuzun nə qədər böyük iş gördüyünün şahidi olduq. Ermənilər dünyanın hər bucağında deyirlər ki, "Qarabağ bizimdir", amma torpaqlarımızda balaca bina belə tikməyiblər. Əksinə, hər şeyi darmadağın ediblər. Qəbirlərə, məzarlara qədər hamısı dağıdılıb. Hər kəs bu vəhşiliklərdən xəbərdardır. Sadəcə, erməni vandallığının bir daha şahidi olduq. Hələ o ərazilərə qayıtmaq üçün xeyli iş görülməlidir. Çünki torpaqlarımızın hər kvadrat metrində 2-3 mina basdırılıb. Həmin minaların təmizlənməsi ilkin və ən vacib məsələlərdən biridir. Təmizlənmə işləri aparılmalıdır ki, quruculuq prosesinə başlanılsın".

**"Ədalət" qəzetinin təsisçisi Aqil Abbas vurğulayıb ki, media nümayəndələri Ağdama səfərləri zamanı bütün həqiqətləri gözləri ilə gördülər:**

"Ağdam işğaldan azad ediləndən sonra orada ikinci dəfə idi olurdum. Kəndlərə də baş çəkdim. Şəxsi maşınımla getmişdim. Kəndlərdə heç nə yoxdur, tamamilə dağıdıblar. Səfər zamanı yadımdan qalan əsas məqam Ağdam azad olunandan sonra minalardan təmizlənmiş ərazilərində taxıl əkməyimiz olub".

**Yeganə Bayramova**

# Əsas söz sahibi Ankara və Moskvadır

*ATƏT və digər beynəlxalq təşkilatların bölgədə görəcəyi konkret və mühüm bir iş qalmayıb*




**"Biz artıq işğaldan azad edilmiş ərazilərin bərpasına başlamışıq. Yenidənqurma proqramı artıq həyata keçirilir".**

Bu sözləri Prezident İlham Əliyev İsveçin Xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri xanım Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşündə deyib. Dövlət başçısı bildirib ki, işğaldan azad edilən torpaqlarda çox iş görülməlidir, çünki bütün infrastruktur dağıdılıb: "Biz artıq Ermənistanla Azərbaycan arasında kommunikasiyaların açılması ilə bağlı danışıqlar prosesinə başlamışıq. Bu, noyabrın 10-da imzalanmış Bəyanatın bir hissəsidir". Ölkə rəhbəri vurğulayıb ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri və ATƏT-in qərarları artıq icra edilib: "Beləliklə, indi biz diqqəti gələcəyə cəmləşdirməliyik". ATƏT-in fəaliyyətdə olan sədri XİN rəhbəri Ceyhun Bayramovla da görüşüb. Nazir təşkilatın bölgə üçün görə biləcəyi konkret işlərdən bəhs edib. Qısacası, həm Prezident, həm də xarici işlər naziri 30 ilə yaxın müddətdə münaqişənin həllində müsbət rol oynamayan bir qurumun bundan sonra hansı işləri görə biləcəyinə diqqət çəkiblər. Açıq şəkildə vurğulanıb ki, özünü doğrultmayan təşkilatın bundan sonrakı əsas missiyası bölgədə kommunikasiyaların bərpasına yardım etmək və humanitar fəaliyyətdə yer almaqdan ibarətdir.

**Vətəndaş Həmrəyliyi Partiyasının funksioneri, siyasi şərhçi Samir Əsədli "Şərq"ə açıqlamasında vurğulayıb ki, Azərbaycan rəhbərliyinin və digər rəsmilərin ATƏT-in bölgədə fəaliyyəti haqda bəyanatları yalnız diplomatik etika prinsiplərinə söykənir:** "Avropalılar da, rəsmi Bakı da çox gözəl başa düşürlər ki, ATƏT və digər beynəlxalq təşkilatların bölgədə görəcəyi konkret və mühüm bir iş qalmayıb. Bu gün Qarabağda və Azərbaycan-Ermənistan münasibətlərində əsas söz sahibi Ankara və Moskvadır. Əlbəttə, Rusiyanın prosesdə əsas oyunçu olmasının mənfi tərəflərinin olması başqa məsələdir. Amma reallıq və fakt odur ki, Avropa ölkələri və Qərbi təmsil edən beynəlxalq təs?kilatlar Qarabağdakı proseslərdən tamamilə kənardadırlar".

**İsmayıl**

# ATƏT-in lüzumsuz quruma çevrildiyini söyləmək çətindir

## Bu təşkilat Azərbaycanla Ermənistan arasında nəqliyyat məsələlərinin həllinə köməkliyini göstərə bilər

Dünən Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov İsveçin xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Ann Lindenin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə tərəflər Azərbaycan-İsveç ikitərəfli əlaqələri, bölgədə mövcud vəziyyət, üçtərəfli bəyanatların icrası, ATƏT-lə əməkdaşlıq və qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.




**"Minsk qrupu ermənilərin Azərbaycan qanunvericiliyinə uyğunlaşmasına dair hansısa proqramlarda fəaliyyət göstərmək istəyirsə, buyursun"**

Minsk qrupu yenidən aktiv fazaya keçərək hər ciddi-cəhdlə 30 il ərzində həll edə bilmədiyi Qarabağ məsələlərinə dair müzakirələrə qoşulmağa can atır. Halbuki, ölkə başçısı İlham Əliyev müharibənin bitdiyini, ATƏT-in "kitabının bağlandığını" xüsusi vurğulayıb. Buna baxmayarq, ATƏT öz ampluasındadır...

**Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞ PA) nümayəndə heyətinin rəhbəri, millət vəkili Səməd Seyidov "Şərq"ə bildirib ki, Minsk qrupu öz-özlüyündə yaranmayıb.** Parlament üzvü qeyd edib ki, bu qurumu 1993-cü ildə BMT-nin qəbul etdiyi qərarların içindən gələn bir məsələ kimi qiymətləndirmək lazımdır: "Ona görə də Minsk qrupunun hansısa formada fəaliyyəti həmin qətnamələrin yerinə yetirilməsi ilə bağlı idi. Təəssüf ki, bu qurum qətnamələrin yerinə yetirilməsi ilə bağlı heç bir fəaliyyət göstərə bilmədi. Qətnamələrin yerinə yetirilməsini Azərbaycan özü həyata keçirib. Lakin ATƏT-in tam olaraq lazımsız quruma çevrildiyini söyləməkdə çəkinirəm.

İlk növbədə Minsk qrupunun fəaliyyəti Azərbaycan və Ermənistan arasında müharibədən sonra dövlətlərarası əlaqələrin genişləndirilməsi istiqamətinə yönəldilə bilər.

İkincisi, Azərbaycanda yaşayan erməni əsilli əhalinin qanunvericiliyimiz, konstitusiyamız və mühitimizə öyrəşmələri və uyğunlaşdırılmaları prosesinə dəstək istiqamətində fəaliyyət göstərməsi mümkündür.

Ona görə də başa düşməliyik ki, ATƏT-in iş istiqaməti dəyişməlidir. Böyük ehtimalla görüşdə məhz bu məsələlər də müzakirə olunub. Artıq iki dövlət arasında nəqliyyat məsələləri öz həllini tapır.

ATƏT bu istiqamətdə köməklik etmək istəyirsə, lap yaxşı. Minsk qrupu ermənilərin Azərbaycan qanunvericiliyinə uyğunlaşmasına dair hansısa proqramlarda fəaliyyət göstərmək istəyirsə, buyursun.

Amma hansısa revanşist meyilləri və 30 il ərzində həll edə bilmədikləri məsələni yenidən gündəmə gətirmək istəyəcəklərsə, bu, mümkün olan deyil.

Əminəm ki, xarici işlər nazirimiz məhz bu istiqamətdə söhbət aparıb".

**Yeganə Bayramova**

# Vilayət Quliyevin qızı vəfat edib

## Humay Quliyevanın ölüm səbəbi hələlik məlum deyil



**Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyevin ailəsinə ağır itki üz verib.**

APA-nın məlumatına görə, səfirin qızı Humay Quliyeva gənc yaşında vəfat edib.

H. Quliyevanın ölüm səbəbi hələlik məlum deyil.

H. Quliyeva Azərbaycanlı Tələbələrin Avropa Forumunun (FASE) aktiv iştirakçılarından olub, müxtəlif nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq edib.

**Allah rəhmət eləsin!**

# Hər kəs yaza bilər

## Təhsil naziri sosial şəbəkədə sorğu keçirir

**Təhsilin keyfiyyətinə müxtəlif amillər təsir edir. Təhsil Nazirliyi üçün bu amillərin prioritetləşdirilməsi olduqca vacibdir.**

Bu məqsədlə geniş təhsil ictimaiyyətinin *(müəllimlər, valideynlər, təhsil işçiləri)* fikrini öyrənməyi faydalı hesab edirəm.

Bunu təhsil naziri Emin Əmrullayev sosial şəbəkədəki səhifəsində yazıb. Nazir bildirib ki, sorğudakı bəndlərin hər biri təhsil prosesinin keyfiyyətli təşkili baxımından mühüm əhəmiyyətə malikdir: "Seçdiyiniz bəndi rəy bölməsinə qeyd etməklə, yaxud keçidə daxil olmaqla sorğuda iştirak edə bilərsiniz. Hər birinizə iştirakınıza görə təşəkkür edirəm".

# Ermənistanda heç bir perspektiv qalmadı

## "500 min nəfər miqrasiya edəcək"

*"ABŞ-da prezident administrasiyasının dəyişməsi, az qala, bütün dünyada hiss olundu. Belə ki, planetin supergüclərindən biri olan bu dövlətin ayrı-ayrı ölkələrə münasibəti dəyişdi. Başqa sözlə desək, ABŞ-ın xarici siyasətində ciddi redaktələr aparıldı. Əlbəttə, təbii olaraq Cənubi Qafqazla bağlı bəzi planlar, məqsədlər də yeniləri ilə əvəz edildi".*

**Bu barədə "Şərq"ə BDU-nun professoru, politoloq Əlimusa İbrahimov bildirib. O qeyd edib ki, Co Bayden Ermənistan Baş naziri Nikol Paşinyanın hakimiyyətdə qalmasında maraqlıdır:** "Bayden hakimiyyəti ələ aldıqdan sonra Paşinyana fərqli münasibət sərgiləyəcəyi haqqında əvvəllər verilən proqnozlar, deyəsən, özünü doğrultmaqdadır. Amerikanın yeni hökumətinin Paşinyanın hakimiyyətdə qalmasını dəstəkləməsi haqqında məlumatlar daxil olmaqdadır. Bu yaxınlarda Ermənistanda Amerika təşkilatının apardığı rəy sorğusu və bu zaman Paşinyanın həyata keçirdiyi siyasəti dəstəkləyən nəticələrin qabardılması Amerikanın Ermənistana çox ehtiyatla yanaşmasına dəlalət edir.

ABŞ gələcək bəyanatların istiqamətini müəyyənləşdirmək üçün burada vəziyyəti öyrənir. Beləliklə, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq Respublika İnstitutunun (International Republican Institute - IRI) Ermənistanda 1910 nəfər vətəndaş arasında keçirdiyi rəy sorğusu haqqında məlumat verilir. Rəy sorğusu 8-16 fevral 2021-ci il tarixləri arasında aparılıb.

Nəticələr göstərir ki, əhalinin 45 faizi ölkənin düzgün istiqamətdə getmədiyini düşünür. Bununla belə, 42 faiz seçkilər keçirilərsə, heç bir qüvvəyə səs verməyə hazır deyil. 28 faiz əhali iqtisadi vəziyyət və işsizliyi əsas problem hesab edir. Rəyi soruşulanlardan cəmi 9 faizini Qarabağ məsələsi narahat edir, milli və sərhəd məsələsini 5 faiz, Ermənistan milli təhlükəsizlik məsələsi haqqında isə 3 faiz narahat olan var. Qarabağ məsələsini Ermənistan əhalisinin cəmi 9 faizinin müdafiə etməsi olduqca maraqlı məqamdır.

**Ə.İbrahimovun sözlərinə görə, mövcud iqtidarla müxalifət arasındakı münasibətlər getdikcə daha da gərginləşəcək:** "Bu gün Ermənistanda elə onların özlərinin verdiyi şişirdilmiş məlumatlara əsasən 2 milyon əhali yaşayır. Qarabağdan olan 150 min erməni də buraya daxildir. Deməli, Qarabağ erməniləri Ermənistanın ümumi əhalisinin 15-18 faizini təşkil edir. Ümumi əhalidən də cəmi 9 faizini, yəni Qarabağ ermənilərinin təxminən yarısını bu problem maraqlandırır. Digər hissə, yaxud Ermənistanda yaşayan yerli ermənilər Qarabağda gedən proseslər haqqında ya düşünmür, ya da bu məsələni əhəmiyyətli hesab etmirlər. Deməli, Paşinyan doğru olaraq hesab edir ki, Qarabağ məsələsi məhz Koçaryan və Sarkisyan başda olmaqla "Qarabağ klanı"nın Ermənistanda hakimiyyətə gəlmək üçün irəli atdıqları oyundur. Və bu oyun 30 ildir ki, erməni millətinin cavanlarını ölümə aparmaqda, Ermənistanı dağıtmaqdadır. Paşinyan bunu görür və addım-addım sadə, amma əksəriyyət təşkil edən erməni kütləsinə əsl həqiqəti izah etməyə çalışır. Ermənilərin də Paşinyanın ardınca gedən və getməyən hissəsi artıq həqiqəti dərk etməkdədir. Koçaryan, Sarkisyan və ətraflarına topladıqları "Qarabağ klanı"nın digər üzvləri Qarabağ ətrafında gedən oyunların mahiyyəti açılanadək Paşinyanı siyasi səhnədən uzaqlaşdırmağa çalışırlar. Onlar bu istiqamətdə bütün vasitələrdən istifadə edirlər. Əks halda, Ermənistanın yerli sakinləri hesab edilən toplumun erməni xalqının başına açdığı bəlaya görə "Qarabağ klanı"na nifrət artacaq. Belə olsa, onların ölkədən qovulmasının tələb ediləcəyi gün uzaqda deyil. Rəyi soruşulanlardan 45 faizinin ölkənin düzgün istiqamətdə getməməsi haqqında düşündükləri, böyük ehtimalla son dövrlər Ermənistanda baş verən hadisələr - müharibə və bu müharibənin səbəb olduğu mitinqlərdən qaynaqlanır. Amma burada bir məsələyə diqqət yetirmək lazımdır ki, Ermənistanın ümumiyyətlə hansı istiqamətdə getdiyi məlum deyil. İstiqamətin düzgün olub-olmamasını müəyyənləşdirmək üçün onun hara getdiyini bilmək lazımdır. İndi Ermənistanın getdiyi yerin uçurum olduğunu iddia edənlər var. Amma bu yanaşma da düzgün deyil. Ermənistan uçuruma getmir, o, artıq uçurumdadır".



**Politoloq bundan sonra Ermənistanda nəyinsə yaxşıya doğru dəyişəcəyini istisna edir:** "Sorğuya görə vətəndaşların 42 faizi ölkədə mövcud olan siyasi qüvvələrin heç birini dəstəkləmir və seçki olarsa, heç kimə səs verməyə hazır deyil. Deməli, bu gün Ermənistan əhalisinin 42 faizini ölkədə baş verən proseslər, ümumiyyətlə, maraqlandırmır. Burada müxalifətin arxasında güclü bir qüvvənin dayanması haqqında irəli sürdükləri iddianın da yalan olduğu ortaya çıxır.

Elə isə bəs bu 42 faiz kimdən təşkil olunub? Təbii ki, bunlar Rusiyada və digər xarici ölkələrdəki yaxınları olan, həmçinin diasporun göndərdiyi vəsait hesabına yaşayan, Ermənistanda müvəqqəti qalmağa təhkim olunmuş insanlardır.

Onlar da ya Ermənistandan çıxmağa vaxtlarını, ya da elə buradaca dəfn olunmalarını gözləyirlər. Əhalinin 28 faizi - təxminən 500 min nəfər- iqtisadi vəziyyət və işsizliyin əsas problem olduğunu düşünür. Həmin 500 min karantin rejimi başa çatar-çatmaz Rusiya və digər ölkələrə miqrasiya etməyə hazır olanlardır. Bu rəqəm erməni siyasətçilərin Ermənistanda miqrasiya etməyi düşünənlərin sayı haqqında əvvəllər səsləndirdikləri rəqəmdən 2 dəfə artıqdır.

Görünən budur ki, Ermənistanda nəinki əhali, heç siyasi rəhbərlərin biri də düşdükləri real vəziyyəti düzgün qiymətləndirmir və ya qiymətləndirmək istəmirlər".

**Kənan Novruzov**

# Azərbaycan Laçın dəhlizində post qurmalıdır

## Ermənistan hərbçilərinin ərazilərimizə daxil olmasının qarşısı alınmalıdır



**Ermənistan hərbçilərini mülki avtomobillərlə Azərbaycan ərazisinə keçirməyə cəhd edir. Bunu Xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin Xarici işlər naziri xanım Ann Lindenin Azərbaycana işgüzar səfəri çərçivəsində keçirilən birgə mətbuat konfransında deyib.**

C.Bayramov bildirib ki, Azərbaycan tərəfi bu barədə hesabatlar hazırlayaraq beynəlxalq təşkilatlara təqdim edib: "Biz beynəlxalq təşkilatlara lazımi məlumatlar vermişik. Bu istiqamətdə bütün beynəlxalq təşkilatlar Ermənistana təzyiq etməlidirlər. Regionda sülhün bərqərar olması üçün hər bir tərəf öhdəliklərini yerinə yetirməlidir".

**Mövzuya münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə açıqlamasında bildirib ki, Ermənistan 10 noyabr razılaşmasına uyğun olaraq öhdəlikləri yerinə yetirmir.** Onun sözlərinə görə, Ermənistanın Qarabağa hərbiçilər göndərməsi ilk növbədə bu ölkənin işğalçı siyasətinin mahiyyətindən irəli gəlir: "Qeyd edim ki, bununla Ermənistan heç nəyə nail olmayacaq. Sadəcə olaraq situasiyanı gərginləşdirməklə prosesləri öz əleyhinə çevirəcək. Azərbaycan beynəlxalq təşkilatları artıq məlumatlandırıb. Hesab edirəm ki, Azərbaycan bu kimi halların qarşısını almaq üçün Laçın dəhlizində post qurmalıdır. Bunu Rusiyadan tələb etməlidir".

M.Əsədullazadə əlavə edib ki, Azərbaycan həmçinin Bəyannamənin 4-cü bəndinə uyğun olaraq Qarabağda Rusiya sülhməramlı qüvvələrinin məsuliyyət zonasında olan silahlı erməni birləşmələrinin çıxarılmasını konkret tələb etməlidir.

Aynurə

# Türkiyənin hərbi sənayesinin inkişafı göz qabağındadır

## Bir neçə ildən sonra Qarabağda birgə müəssisələrin fəaliyyətinin şahidi olacağıq



**Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun hesabatında dünya ölkələrinin silahlanması ilə bağlı maraqlı məqamlar əks olunub. Hesabatda Azərbaycan və Ermənistana da yer verilib. Hər iki ölkənin öz hərbi potensialını artırdığı bildirilib.**

Təşkilat 2016-2020-ci il ərzində Ermənistana idxal olunan silahların 94 faizinin Rusiyanın, Azərbaycana idxal olunan silahların 69 faizinin isə İsrailin payına düşdüyünü yazıb. Sənəddə həmçinin qardaş ölkə Türkiyə ilə bağlı statistika da açıqlanıb. Vurğulanıb ki, son illər ərzində Türkiyə silah idxalını 59 faiz azaldıb. Bunun əsas səbəbi ABŞ-ın F-35 qırıcılarının Türkiyəyə ixracını məhdudlaşdırması, nəticədə qardaş ölkənin yerli silah istehsalını artıraraq idxaldan asılılığı azaltmasıdır. Eyni zamanda hesabatda qeyd olunub ki, Səudiyyə Ərəbistanı, Misir və Qətər dünyada ən çox silah idxal edən ölkələr siyahısına düşüb. Çin və Rusiyanın silah satışlarında azalma müşahidə olunub.

**Açıqlanan rəqəmlərlə bağlı "Şərq"ə danışan hərbi-ekspert Ədalət Verdiyev deyib ki, Stokholm Beynəlxalq Sülh Araşdırmaları İnstitutunun hesabatı dünyanın bir çox ölkəsi və təşkilatı tərəfindən kifayət qədər ciddi qəbul olunur.** Ekspertin sözlərinə görə, lakin bu cür hesabatlar olmadan da Ermənistanın yaxın illər ərzində Serbiya, Polşa və Hindistanla əməkdaşlığını kənara qoysaq, hərbi potensialının böyük hissəsini yalnız Rusiya hesabına formalaşdırdığını bilirdik: "Azərbaycanın 2020-ci ilə qədərki müddətdə əsasən İsrail silahlarına üstünlük verməsi tamamilə normaldır. Azərbaycanın hava hücumundan müdafiə sistemində, pilotsuz aviasiya vasitələrində və müdafiə sənayesinin qurulmasında İsrail dövlətinin rolu danılmaz dərəcədə böyükdür. Ancaq Azərbaycan sadəcə İsraillə deyil, Belarus, Pakistan, Türkiyə, İtaliya və digər Avropa istehsalçıları ilə də ciddi əməkdaşlıq edir. Hətta masada imzalanmış müqavilələr də var. Ermənistan isə özünü birtərəfli qaydada Rusiyaya məhkum edib. Yəni Rusiya hansısa silahı Ermənistana verməkdən imtina edirsə, düşmən ölkə həmin silahdan məhrum olur. Qonşularla davamlı problem yaşayan Ermənistanın alternativ variantı qalmır. Azərbaycan isə Rusiyadan aldığı hər hansı texnikanı eyni zamanda Belarus, Ukrayna və Türkiyədən də əldə edə bilər. Bu şaxələndirmə Azərbaycan üçün çox vacib və doğru addımdır".

**Ə.Verdiyev vurğulayıb ki, Türkiyə son illərdə həm hava hücumundan müdafiə sistemlərində, həm də pilotsuz aviasiya vasitələrinin əldə edilməsində ABŞ tərəfindən ciddi maneələrlə rastlaşırdı:** "Ona görə də qərar verildi ki, ixrac etmək əvəzinə həmin silahların yerli istehsalı təşkil olunsun. Hazırda Türkiyənin silah idxalını azaltması Azərbaycan üçün olduqca önəmli faktordur. Ən yaxın tərəfdaşımız olan qardaş Türkiyənin silah sistemləri sahəsində yerli və milli istehsalı təşkil etməsi yaxın gələcəkdə Azərbaycanın da hərbi sahədə potensialına ciddi təkan verəcək. Türkiyə hərbi sənayesinin inkişafı ilə bir neçə ildən sonra Qarabağ ərazisində birgə müəssisələrin fəaliyyətinin şahidi olacağıq. İmzalanan sənədlər, keçirilən görüşlər, əldə olunan razılaşmalar bunu deməyə əsas verir".

İsmayıl Qocayev

# İşıq ucu görünmür

## *Ermənistan təkcə məğlubiyyətin acısını yaşamır*

Etirazların şiddətləndiyi Ermənistanda vəziyyət daha da gərginləşir. Hakimiyyət sosial problemlərdən qurtulmaq üçün hərbi büdcəsini azaltmağı planlaşdırır. Keçirilmiş rəy sorğusunda vətəndaşlar da müharibədəki biabırçı məğlubiyyətdən sonra hərbi büdcəni azlatmağın tərəfdarı olduqların bildiriblər.



Çünki ölkədə iqtisadi böhran o qədər dərinləşib ki, hökumət maaş və pensiyaları verməkdə ciddi çətinliklərlə qarşılaşıb. Artıq Ermənistan hakimiyyəti problemi fəal şəkildə müzakirə edir. "168.am" nəşri yazır ki, sözügedən təklif iki dəfə müzakirədən keçirilib. Bunlardan biri hökumət üzvləri arasında, digəri isə Müdafiə Nazirliyində olub.

**Ermənistandakı durumu "Şərq"ə şərh edən politoloq Zaur Məmmədov bildirib ki, müharibədən sonra Ermənistanda böhran dərinləşir:**

"İrəvanda yalnız hakimiyyət davası getmir. Siyasi hakimiyyət uğrunda birbirinə düşmən olan Baş nazir Nikol Paşinyan komandası ilə Robert Koçaryan və "Qarabağ klanı"nın müharibəsinin şahidiyik.

Onların hər biri bilir ki, birinin məğlubiyyəti digərinin məhvinə gətirib çıxaracaq. Ona görə də mübarizələrini sona qədər davam etdirəcəklər.

### Bütövlükdə cəmiyyət xaosun içindədir, ölkə ideologiyasızlıqdan əziyyət çəkir

Digər tərəfdən Ermənistan cəmiyyətinin daxilində ideologiyaların böhranının şahidiyik. "Böyük Ermənistan" xəyalı ilə yaşayan erməni xalqı günlərin bir günü yuxudan ayılaraq məğlubiyyətlərini və reallığın tamamilə fərqli olduqlarını gördülər. Ona görə də indi vəziyyətin dəyişməsini və mövcud ideologiyanın davam edə bilməyəcəyini başa düşməkdədirlər".

**Z.Məmmədov qeyd edib ki, Ermənistandakı revanşistlər hələ də mübarizə aparırlar:** "Çünki ümumdünya erməni diasporu və Ermənistandakı revanşistlər yaxşı başa düşürlər ki, onlar "Böyük Ermənistan" məqsədi olmadan erməni dövlətçiliyinin gələcəyini görmək istəmirlər.

Yaxın zamanlarda parlament seçkilərinin keçirilməsi vəziyyəti sabitləşdirə və seçkilər vasitəsilə xalq öz seçimini edərək kimin və hansı ideologiyanın hakimiyyətdə olmasına öz qərarını verə bilər.

Üçtərəfli bəyanatın yerinə yetirilməsi üçün Ermənistandakı sabitlik vacibdir. Son zamanlar bəyanatdakı bəzi müddəalarda problemlərin də ortaya çıxdığını görürük. Həmin problemlərin aradan qaldırılması zəruridir.

Burada Rusiyanın Ermənistanda baş verənlərlə bağlı fəal iş birliyi və İrəvanda yaşananlarla əlaqədar gözləmə mövqeyində olduğunu görməkdəyik. Bizim üçün əsas məsələ isə bəyanatın motivlərinin dərhal yerinə yetirilməsidir.

Ona görə də rəsmi Kreml Ermənistandakı vəziyyətin sabitləşməsində maraqlı olmalıdır".

Yeganə Bayramova

# Rusiya da bilməlidir, heç kimə güzəşt olmayacaq

## "Əli silahlı hər bir Ermənistan vətəndaşı Azərbaycan ərazisində terrorçu sayılacaq"



**Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov Ermənistan tərəfindən Azərbaycanın ərazilərinə hərbçilərini göndərmək cəhdlərinə dair açıqlama verib. XİN başçısı bu barədə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşündə bildirib.**

Nazir həmçinin bölgədə mövcud olan cari vəziyyət, 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələlər, gündəlik əsasda insanların həyatı üçün birbaşa təhlükə təşkil edən mina xəritələrinin Azərbaycana verilməsindən imtina edilməsi kimi məsələlər barədə qarşı tərəfə məlumat verib.

**Mövcud durumu "Şərq"ə şərh edən millət vəkili Rasim Musabəyov bildirib ki, Azərbaycan tərəfi bu məsələni çox sərt şəkildə Rusiya hərbi komandanlığı qarşısına qoyub:** "Ortada müəyyən öhdəliklər var. Rusiya komandanlığı Azərbaycandan asılıdır. Onların bütün təminatı Azərbaycan ərazisindən keçir. Ona görə də Rusiya qarşısında məsələ qaldırmaq, müəyyən tələblər irəli sürmək hüququmuz var. Fikrimcə, bu hüquqdan da istifadə edirik. Ermənilər hər gün zarıyırlar ki, bizim əlimizdə onların girovları var. Lakin onlar girov yox, terrorçulardır. Əli silahlı hər bir Ermənistan vətəndaşı Azərbaycan ərazisində terrorçu sayılacaq və həbs olunub uzun müddət həbsxanaya məhkum olacaq. Ona görə də ermənilər bu terrorçuların qayıtmasını istəyirlərsə, öhdəliklər götürməli və hərbiçilərini ərazilərimizdən yığışdırmalıdırlar".

Yeganə

# Azərbaycan türkcəsi ortaq türk dili olmalıdır



## Firudin Cəlilov: “60-70 milyon insan bu türkcədə danışır, az rəqəm deyil”

**Qırğızıstan Prezidenti Sadır Caparovun Özbəkistana rəsmi səfəri zamanı dövlət başçısı Şevket Mirziyoyev ilə görüşüb. Liderlər ilk dəfə olaraq rus dilində danışmayıblar. Onlar rəsmi çıxışlarını öz ana dillərində ediblər.**

Bundan əvvəl isə Orta Asiya dövlət başçıları rəsmi çıxışlar zamanı rus dilindən istifadə edirdilər. Beləliklə, sözügedən görüş birlik mesajı kimi tarixə düşüb. Görünür, Rusiyanın qara ”buludları” keçmiş sovet ölkələrinin üzərindən artıq çəkilməkdədir. Daha doğrusu, türk dövlətləri özləri bunu edirlər...

**Türkoloq alim, professor Firudin Cəlilov “Şərq”ə açıqlamasında tarixi ilki belə xarakterizə etdi:** ”Əlbəttə, iki türk dövlətinin üçüncü bir dildə danışması yaxşı hal deyil. Məsələ ondan ibarətdir ki, SSRİ dövründə rəsmi dil rus dili olub. Ortaq türk dilinin öyrənilməsi isə ayıb sayılıb. Amma indi otuz il keçib.

Türkdilli dövlətlər başa düşürlər ki, onlar arasında əlaqələr güclənir. Ona görə də utanc vəziyyətə düşməməkdən ötrü türk dillərində danışmağa məcburdurlar. Şübhəsiz, ortaq dildə danışmaq da çətindir. Çünki hər dilin öz xüsusiyyətləri var”.

*F.Cəlilov, həmçinin bunun yolunu da göstərdi:* ”Dediyim kimi, ortaq dil olmalıdır. Bunun üçün isə siyasi iradə mütləqdir. Ortaq dərsliklər tərtib edilməlidir. Misal üçün, İstanbulda və Daşkənddə təhsil alan şagird eyni kitabı oxumalıdır.

Fikrimcə, Azərbaycan türkcəsi ortaq türk dili olmalıdır. Çünki ayrı-ayrı ölkələrdə, o cümlədən qardaş Türkiyənin böyük bir hissəsində Azərbaycan türkcəsindən istifadə olunur.

Yeni Azərbaycan türkcəsində danışan təxminən 60-70 milyon insan var. Bu, heç də az rəqəm deyil. Əminəm ki, məsələn, qazaxlar Azərbaycan türkcəsini daha yaxşı başa düşərlər, nəinki Türkiyə türkcəsini. Qaldırdığınız məsələ ilə dilçilər məşğul olmalıdırlar.

Xüsusi komissiya yaradılmalı, iş planı tərtib edilməlidir. Və siyasi iradə yolu ilə problem öz həllini tapmalıdır”.

**Kənan Novruzov**



## Təklif səsləndi

### Şuşa və Kayseri qardaşlaşacaq

**Türkiyədə Kayseri şəhərinin Şuşa ilə “qardaş şəhər” olması üçün Milli Məclisə müraciət etmişik. Təklifimizin parlamentin aprel ayında keçiriləcək iclasında müzakirə edilməsi məqbul görüldü”.**

“Şərq” xəbər verir ki, bu sözləri ”İyi Parti”nin Kayseri Böyükşəhir Bələdiyyəsinin məclis üzvü Erhan Özhan deyib. O, qaldırılan məsələnin əhəmiyyətindən də danışıb: ”Erməni işğalından azad edilən Şuşa tarixi, coğrafi və mədəni xüsusiyyətlər baxımından türk dünyasının vacib şəhərlərindəndir.

Türkiyə və Azərbaycan arasında tarixdən gələn milli və mənəvi qardaşlıq əlaqələrinin şəhərlər arasında da təsis edilməsindən ötrü Azərbaycan Prezidenti İlham Əliyevin mədəniyyət paytaxtı elan etdiyi Şuşa ilə türk dünyasının vacib mədəniyyət şəhərlərindən olan Kayserimizin ”qardaş şəhər” olması üçün müvafiq qurumlara müraciət etmişik. Onlardan lazımi addımların atılmasını xahiş etmişik”.

**Kənan**

## Qanunları pozan hər kəs cəzasını almalıdır

### Arif Əliyev: “Blogerləri jurnalistikanın prinsiplərinə uyğunlaşdırmalı deyilik”



**Blogerlik adı altında reketliklə məşğul olan, müxtəlif məmurları şantaj edənlərin sayı günbəgün artır. Özlərini haqq carçısı kimi qələmə versələr də, əslində bu işbazlar xeyli pullar qazanır. Hətta kimlərinsə haqqını müdafiə etdiklərini deyən bu blogerlərin aylıq gəlirini saymaqla bitməz.**

Bu günlərdə özünü videobloger kimi təqdim edən Ata Abdullayevin həbsi də yuxarıdakı fikirlərimizin aydın təzahürüdür. Hədə-qorxu ilə tələb etməkdə təqsirləndirilərək həbs edilən A.Abdullayevi ağır cəza gözlədiyi bildirilir.

Bəs, blogerlik adı altında reketliklə məşğul olanlara qarşı hansı tədbirlər görülməlidir?

**Sualımızı cavablandıran “Yeni Nəsil” Jurnalistlər Birliyinin sədri, tanınmış jurnalist Arif Əliyev “Şərq”ə açıqlamasında blogerliyin peşə yox, məşğuliyyət olduğunu söyləyib:** ”Ona görə də blogerləri jurnalistikanın prinsiplərinə uyğunlaşdırmalı deyilik. Bu sahədə fəaliyyət göstərənləri jurnalist hesab etmək tamamilə yanlışdır. Bilmirəm ki, kim Ata Abdullayevi məhkəmədə jurnalist qismində önə çıxarır?

İstər jurnalist, istər bloger, istərsə də qeyri-bloger olsun, müəyyən qanunlar var. Cəza həmin qanunların tələblərini pozan insanlar üçün eynidir. Peşəsindən asılı olmayaraq, medianın adından istifadə edərək şantaj və reketliklə pul alanlar müvafiq cəza ilə cəzalandırılmalıdır.

Jurnalist peşəsi olsa belə, kimsə bu cür qanunsuzluqlara yol verdiyi üçün azad oluna bilməz”.

**Yeganə**

# “Pandemiyadan sonra daha güclü Türkiyəni görəcəyik”

## Hərbi-siyasi ekspert: “Rusiya isə pandemiyadan sonra daha ağır vəziyyətlə üzləşəcək. Çünki bütün ölkələr ondan qaçır, kimsə sevmir”

NATO-dan S-400-lər ala bilməyən Türkiyənin Rusiya ilə hərbi əməkdaşlığı məlumdur. Əlbəttə, hər iki ölkə sözügedən partnyorluqdan məmnundur. Hər halda dövlət başçılarının ayrı-ayrı vaxtlarda səsləndirdikləri bəyanatlar, biri-birləri barədə işlətdikləri komplimentlər dediyimiz fikrin bariz nümunəsidir. Lakin bu iki nəhəng dövlətin əzəli rəqib olduqları da kimsəyə sirr deyil. Ən azından ona görə ki, onlar regionda maraqlı ölkələrdir. Deməli, müntəzəm olaraq biri-birlərinin "ayaqlarını tapdalayırlar".



**Hərbi-siyasi ekspert Həşim Səhrablı Ankara-Moskva münasibətlərini ”Şərq”ə təhlil etdi:** ”Siyasi masada Türkiyə-Rusiya dialoqu hər gün nə qədər inkişaf etsə də, hərbi mənada, qaynar nöqtələrdə iki ölkə arasındakı gərginliklər pik həddədir. Qarabağ, Suriya, Liviya kimi qanlı nöqtələr bunun aydın təzahürüdür. Maraqlıdır ki, Türkiyə Rusiyadan hər sahədə geridə olmasına baxmayaraq, Qarabağ və Liviyada üstünlük onun müttəfiqlərində, Suriyada isə balanslıdır. Bunun əsas səbəblərindən biri də Türkiyənin beynəlxalq hüquq normaları çərçivəsində mübarizə aparması, Rusiyanın isə təcavüz xarakterli siyasətindən əl çəkməməsidir. Hətta Türkiyə bu kimi amillərdən cəsarətlənmiş olmalıdır ki, Ukrayna, Gürcüstan ərazilərindəki separatçı hərəkətlərə biganə qalmır. Eyni zamanda Mərkəzi Asiyada möhkəmləndirici addımlar atır. Təbii, Rusiya kimi yırtıcı və güclü ölkə buna susmayacaq. Lakin görürük ki, Rusiya 2016-cı ildəki kimi, Türkiyəyə sərt mövqe sərgiləməkdən çəkinir, tabeliyində olan militant qüvvələrlə zərbə endirir. Yeri gəlmişkən, Türkiyənin özü də çıxılmaz vəziyyətlə qarşılaşa bilər.



Qərb ilə münasibətləri normallaşdırmaq hələ mümkün olmayıb. Qərbin imperialist siyasəti Türkiyənin milli maraqlarını nəzərə almır və bu, haqlı olaraq Ankarada Qərbə qarşı qıcıq yaradıb.

Amma Türkiyənin Qərblə münasibətlərinin gərginləşməsi onu Rusiya təhlükəsi qarşısında da əlacsız qoyur. Rusiya özü də Qərbin qəzəb dairəsindədir və təslim olması an məsələsidir. Bəxti orada gətirib ki, böyük enerji qaynaqları var və iqtisadi dözümlülüyünü içəridən təmin edir, hətta enerji satışından milyardlarla dollar qazanır”.

**H.Səhrablının proqnozlarına görə, qardaş ölkə Kremlə uduzmayacaq:** ”Türkiyənin əsas gəlir mənbəyi turizm sayılırdı, pandemiya onu bu gəlirdən məhrum edib. Bir il ərzində Türkiyə iqtisadiyyatı ciddi zərər görüb. İqtisadi çətinliklər artır. Qətərlilər əvvəlki qədər investisiya yatırmır.

Onsuz da yatırdıqları istənilən nəticəni vermədi. Pandemiyadan sonra daha güclü Türkiyəni görəcəyik. Bu, bəllidir. Ancaq ovaxtadək stabillik və milli mənafeləri qorumaq üçün ciddi səylər lazımdır. Rusiya isə pandemiyadan sonra daha ağır vəziyyətlə üzləşəcək. Çünki bütün ölkələr ondan qaçır, kimsə sevmir.

Ukraynada, Gürcüstanda, Azərbaycanda və Mərkəzi Asiyada fürsət axtarırlar ki, Moskvadan haqları olanı qoparsınlar. Hər kəsin ümid yeri Türkiyədir. Qərbin özünə də inam o qədər yüksək səviyyədə deyil. Avropanın transmilli şirkətləri xalqları o dərəcədə talan edib ki, "qış yuxusunda" olanlar gerçəkləri ”yuxuda görməyə başlayıb". Əvvəl-axır, güclü zamanında Türkiyəni sıradan çıxara bilməyən Moskva mütləq məğlubiyyətə məruz qalacaq.

Bu gün siyasi masada ”elə", qaynar nöqtələrdə ”belə" davam edən münasibətlər ilkin xəbərçidir. Xəbərlər hərdən ürəkbulandırıcı olacaq, hazırlıqlı olub ”qaytarmamaq" lazımdır...”.

**Kənan Novruzov**

# Şuşa fatehi Polad Həşimovun qisasını aldı

## Ramil Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Laçında döyüşüb, Şuşada şəhid olub







Sədi Şirazi deyirdi ki, "döyüş meydanında can versə insan, xoşdur namərdliklə qoyub qaçmaqdan". Görünür, doğrudan, belədir. 44 günlük hərbi əməliyyatlar zamanı biz əsrlər əvvəl deyilmiş bu fikrin gerçəkliyini sübut etdik. Şəhidlərimizin, qazilərimizin hər biri ən uca zirvəni fəth etməklə həm də qəlblərdə taxt qurdular. 1996-cı il təvəllüdlü Ramil Əliyev də belə igidlərimizdəndir.

O, Hacıqabul rayonunda anadan olub. 2002-ci ildə Şirvan şəhərindəki 9 saylı tam orta məktəbin 1-ci sinfinə qəbul olub. 2013-cü ildə Şirvan şəhərindəki humanitar kollecdə təhsilin növbəti mərhələsinə başlayıb. Ardınca isə N saylı hərbi hissədə Vətənə borcunu yerinə yetirib. 2017-18-ci illərdə iki dəfə Kərbəlanı ziyarət edib. Ramil şəhid olanadək Kərbəlaya zəvvarlar aparırdı.

Görünür, Tanrı qatında sevimli bəndə olduğuna görə ən ali zirvəyə ucaldı. Anası Xuraman xanım oğlunun döyüş yolu barədə "Şərq"ə danışıb: "Cənab general Polad Həşimovun şəhid olması Ramilə çox pis təsir etdi. Könüllü cəbhəyə yollandı. Amma onun könüllü olduğunu yalnız şəhədətə qovuşandan sonra öyrəndik.

Bizə yalan danışmışdı. Demişdi ki, çağırış gəlib. Oğlumla oktyabrın 23-ü danışandan sonra bir neçə gün xəbər tuta bilmədik. Xəbər tutanda düşmənin arxasına keçdiklərini, mühasirəyə düşdüklərini söylədi. Demə, əlavə qüvvə gəlib, onları xilas edib. Sonuncu dəfə oktyabrın 28-i səsini eşitdim.

Xüsusi bir şey söyləmədi, sadəcə"Allaha əmanət olun" dedi. Amma qohumlarla danışanda onlara söyləyibmiş ki, çox pis yerdəyik, qayıtmaq mümkün deyil. Bunu sonradan bildim. Ramil Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı və Laçında döyüşüb. Şuşada isə şəhid olub. Noyabrın 5-də dəfn etmişik.

Prezident, Ali Baş Komandan İlham Əliyev oğlumu "Vətən uğrunda", həmçinin Cəbrayılın və Qubadlının azad edilməsinə görə müvafiq medallarla təltif edib. Övladımla fəxr edirəm".

**Kənan**

## Daha 376 nəfər koronavirusa yoluxub

### 101 nəfər sağalıb, 4 nəfər vəfat edib



**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 376 yeni yoluxma faktı qeydə alınıb, 101 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

## Daha bir siyahıda 96 hərbçinin adı var

### Ermənistan müharibədə həlak olanlarını açıqladı



**Ermənistan ikinci Qarabağ müharibəsində həlak olmuş hərbçilərinin növbəti siyahısını açıqlayıb.**

Bu barədə "Report" Ermənistan mətbuatına istinadən xəbər verir.

Siyahıda 96 hərbçinin adları yer alıb. Qeyd edək ki, müharibənin sona çatmasından 4 ay keçməsinə baxmayaraq, Ermənistanın Müdafiə Nazirliyi hələ də ikinci Qarabağ müharibəsində həlak olmuş hərbçilərin sayını gizlədir. Yalnız Səhiyyə Nazirliyi 3 600-yə yaxın meyitin ekspertizadan keçirildiyini açıqlayıb. Yerli hərbi ekspertlər bunun Paşinyan hakimiyyətinin müharibənin uğursuzluqlarını ört-basdır etməsi ilə əlaqələndirir, müharibədə ölən hərbçilərin sayının 5 000-dən çox olduğunu bildirirlər.

# Elcan Vətənə CAN oldu

## Bütün döyüşlərin önündə gedən komandir silahdaşlarının da qəhrəmanına çevrilib





**Vətən uğrunda canını fəda edən, Son Qarabağ savaşında qəhrəmancasına vuruşan oğullarımızdan biri də Məmmədov Elcan Zöhrab oğludur.**

1989-cu ildə Tərtər rayonunda dünyaya göz açıb. Bakıxanov qəsəbəsində 96 nömrəli tam orta məktəbdə təhsil alıb. Ardınca Azərbaycan Texniki Universitetinə qəbul olunub. 2010-cu ildə ailə qurub. Bir il sonra məzun olub, hərbi xidmətə yollanıb. Cəlilabad rayonunda N saylı hərbi hissədə xidmətini başa vurub. Əvvəlcə fərqli sahədə çalışan Elcan, 2018-ci ildə öz istəyi ilə Daşkəsən rayonu, N saylı hərbi hissədə işə başlayıb. Leytenant rütbəsi alıb.

Şəhidimizin iki gül balası- Ayanı və Ramalı yadigar qalıb.

Deyirlər, Elcan xidməti müddətində əsgərlərinin rəğbətini qazanıb. Bir əsgəri (adını qeyd etməyib-.red) danışır ki, onlara qarşı komandir deyil, qardaş kimi olub:

"Çox gözəl insan idi. Son qəpiyini də bizim ehtiyaclarımız üçün xərcləyərdi. Hər zaman deyirdi ki, nə lazım olsa, çəkinməyin, mənə bildirin. Əvəzolunmaz komandir, gülərüz, mehriban idi, hamının qeydinə qalardı. Paxıllığın nə olduğunu bilməzdi".



**"Şərq"lə həmsöhbət olan şəhidimizin ömür-gün yoldaşı Gülnarə xanım söyləyir ki, Elcan gözəl övlad, mehriban ailə başçısı, qayğıkeş ata, sevimli qardaş idi:** "Ötən ilin aprel ayında Goranboyun Tapqaraqoyunlu kəndinə göndərildi. General Polad Həşimovun şəhid olduğu Tovuz döyüşlərində də iştirak edib. Vətən müharibəsində taboru ilə birgə Talış yüksəkliyi istiqamətində hücuma keçib. Həmişə deyirdi ki, "Gülüm, mən sənin qəhrəmanınam": "Mənimlə daim fəxr edəcəksən. Adım çəkiləndə hamı ayağa qalxıb, sənə yol verəcək". Elcan tək bizdən yox, köməyə ehtiyacı olan əsgərlərindən də getdi. Öz xəyallarını, arzularını Vətənə fəda etdi. Hücuma keçməzdən əvvəl mənimlə əlaqə saxladı ki, ömrüm, oğlumla qızıma deyərsən ki, artıq ataları ilə fəxr edə bilərlər".

**Onunla birlikdə savaşan müddətdən artıq bir hərbi qulluqçu isə həmişə Elcanın öndə vuruşduğunu söyləyib:** "Ardımca gəlin" deyirdi. Döyüş zamanı ayağından yaralandı. Dedim ki, yoldaş komandir, siz yaralısınız, qayıdın. Söylədi ki, boş şeydir: "Mən yaralanım qayıdım, sən geri dön, bəs irəli kim getsin?". Sonra ardımca "İrəli" əmri verdi".

Demə, Elcan və taboru ön cəbhəni yarıb keçiblər. İkinci posta yaxınlaşanda o, snayperlə başından vurulub, şəhadətə qovuşub.

**Digər silahdaşları isə onunla döyüş yolu haqqında bunları deyiblər:**

"Elcan igid idi. Kaş sağ olardı. Qəhrəmancasına şəhadətə ucaldı. Həmişə söyləyirdi ki, bizim yolumuz bura qədərdir, uşaqlar: "Öldü var, döndü yoxdur". O, çox gözəl insan idi. Mərdcəsinə vuruşdu, əsgərlərinə örnək oldu. Əsl qəhrəmanlıq nümunəsidir. Vətən sağ olsun".

Qeyd edək ki, şəhidimizin atası da Birinci Qarabağ müharibəsinin iştirakçısıdır. Elcan həmişə zarafatla Zöhrab bəyə deyirmiş ki, "Ata, sənin azad edə bilmədiyin torpaqları, oğlun qaytaracaq".

**Anası Sahilə xanım isə oğlu ilə söhbətlərini belə xatırlayır:** "Deyirdi ki, bir gün səni barmaqla göstərib, söyləyəcəklər ki, o, mayor Elcan Məmmədovun anasıdır. Mən onsuz da gözəl insan, övlad olduğu üçün balamla qürur duyurdum".

*Elcan Məmmədov ölümündən sonra "Vətən uğrunda", Şuqovuşanın və Laçının azad olunmasına görə medalları ilə təltif olunub.*





**Samirə Ərəblinski**



# Hədəfə sadəcə 2 saniyə bəs edir

## Türkiyənin yeni silahı dünyada böyük fərq yaradır

**Son illər Türkiyə yerli və milli müdafiə sənayesində atdığı addımlarla dünyanın ən qabaqcıl ölkələrindən biri olub.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Türk Silahlı Qüvvələrinin inventarına daxil olan İHA-lar ordunun əməliyyat qabiliyyətini günbəgün artırmaqdadır. Müdafiə Sənayesi başçısı İsmail Demir və STM baş müdiri Özgür Güleryüz mətbuata açıqlamasında "Togan Rotary Wing Wave" və "Kargu Döner Kanatlı Vurucu İHA" kəşfiyyat sistemləri haqqında əhəmiyyətli məlumatlar veriblər. Onlar bildiriblər ki, həm gecə, həm də gündüz işləyə bilən "Togan" insan müdaxiləsi olmadan belə müstəqil şəkildə fəaliyyət göstərə bilir. Vəzifə dəyişdirmə xüsusiyyətiylə iki Togandan birinin batareyası müəyyən bir səviyyədən aşağı olduqda digəri avtomatik olaraq tapşırığı öz üzərinə götürə bilir. Beləliklə, iki Togan ilə 7 gün 24 saat müşahidə tapşırığı həyata keçirtmək mümkündür. Həm də o insan səhvlərindən qaynaqlanan müşahidə səhvlərini aradan qaldırmaq imkanına da malikdir. Bir vasitə hədəf olaraq seçildiyində, istifadəçinin edə biləcəyi heç bir şey qalmır. Çünki sistem hədəfin hara getdiyini avtomatik olaraq izləyir.

"Kargu Rotary Wing Strike İHA" isə fərqli hərb başlıqlarla işləyə bilər. Havaya qalxdıqdan sonra kamera görüntüsündə görünən bir obyekti hədəf olaraq təyin edir və kamikadze qaydasında hədəfə dalır. Süni zəka işlənməsi kimi üstün alqoritm qabiliyyətlərinə sahib olan Kargu ilə hədəf yuxarıdan aşkar edilə bilər. Bir vasitə hədəf olaraq seçildikdə istifadəçinin edə biləcəyi heç bir şey qalmır. Hədəf hara gedirsə, sistem də avtomatik olaraq onu izləyir. Kargu "vur" qərarının idarəetmə stansiyasından verilməsiylə hədəfi istənilən məsafədən zərərsizləşdirir. Kargu 1 kilometr yuxarı olduqda və 160 km-ə dalarkən hədəfin cəmi 2 saniyəsi olur. Bu sistemin sursat buraxan versiyaları da qısa müddətdə hazır olacaq.




**Aynurə Pənahqızı**



# Tənha yaşadığından heç kimin xəbəri olmayıb

## Zənglərə cavab verməyən məktəb direktoru evində ölü tapıldı

**Hadisə Xaçmaz rayonunun Alıcqışlaq kəndində baş verib. Sputnik Azərbaycan-ın verdiyi məlumata görə, Alıcqışlaq ümumi orta məktəbinin direktoru 45 yaşlı Ülkər Vəliyəddin qızı Hacıyeva dəm qazından zəhərlənib və dünyasını dəyişib.**

Məktəb direktoru evində tək yaşadığından onun dünyasını dəyişməsindən heç kimin xəbəri olmayıb.

Bu barədə məlumat dünən səhər saat 08.41-də FHN-nin Şimal Regional Mərkəzinə Xaçmaz rayon polis şöbəsindən məlumat daxil olub.

Məlumatda Xaçmaz şəhərinin Heydər Əliyev prospekti, 14 ünvanında yaşayan bir nəfər qadının telefon zənglərinə və qapının döyülməsinə cavab vermədiyi bildirilib. Dərhal hadisə yerinə gedən xilasedicilər fərdi evin qapısını təhlükəsizlik qaydalarına əməl etməklə xüsusi alət və avadanlıqlar vasitəsilə açaraq içəri daxil olublar. Evin hamamında Ü.Hacıyevanın meyiti tapılıb.

Rayon prokurorluğu faktın araşdırılmasına başlayıb.

# Bakıda "feyk yarmarka"lar yaradıblar

## Bazardakı satıcıları müəyyən müddətə yarmarkalara cəlb edirlər

Bayramqabağı əhalinin bazar qayğıları artır. İkinci ildir ki, şənbə-bazar günləri ictimai nəqliyyat işləmir. Hətta ən gur alver gedən "8-ci kilometr" bazarında da şənbə-bazar günləri seyrəklikdi. İctimai nəqliyyat yoxdur, ona görə. Ucuz - sərfəli bazarlıq etmək istəyən aztəminatlı ailənin kartof-soğan almaq üçün taksi sifariş edəcəyini təxmin etməz yəqin Operativ Qərargah üzvləri.

Elə isə 5 günlük iş həftəsi olan vətəndaş nə zaman, hansı gün bazarlıq edə bilər? Şənbə-bazarı "qara gün"ə çevirmiş Operativ Qərargahı bu sualın cavabı da düşündürmür. Əvəzinə, "kənddən şəhərə yarmarkaları təşkil olunur" elanları verilir. Biri "Gənclik" metrostansiyasının üzərindədir. Amma "M2" işgəncəsi yaşayan hansı sərnişin avtobusdan düşüb o yarmarkaya gedər? Üstəlik, həftənin 5 günü işə gedib-gəlirsə?!

Bazara gediş gəlişi yenə birtəhər yoluna qoymaq olar. Gəl ki əsas məsələ yarmarkalarda satışa çıxarılan ərzaqların qiymətlərinin bahalığındadı. Əhali yarmarkalardakı qiymət bahalığından narazıdır. Hətta "marketlə yarmarkanın fərqi qalmayıb" deyənlər də var.

Mövzuya iqtisadçı baxışını təqdim etməzdən əvvəl Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC tərəfindən Novruz bayramı ilə əlaqədar olaraq 13-19 mart tarixlərində təşkil olunan "Kənddən Şəhərə" yarmarkaları ilə bağlı məlumata nəzər yetirək.

Məlumatda qeyd edilir ki, Bakı və Abşeron ərazisində üç fərqli ünvanda keçiriləcək yarmarkanın təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını

### Bu işin əsl mahiyyəti odur ki, gərək kəndli öz məhsulu ilə orada təmsil olunsun, becərdiyi məhsulu özü satsın

yerli və sağlam məhsullarla qarşılamaq, yerli fermerlər üçün alternativ satış kanalı təşkil etməkdir. "Kənddən şəhərə" Novruz yarmarkası aşağıdakı ünvanlarda fəaliyyət göstərir:

- Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 *("Gənclik" metrostansiyasının çıxışı)*
- Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B *("İnqilab" kinoteatrının yanı)*
- Xırdalan şəhəri, Heydər Əliyev prospekti, 41A

"Aqrar Tədric və Təchizat" ASC bildirir ki, "Kənddən Şəhərə" Novruz yarmarkalarında satışa çıxarılacaq məhsullar tamamilə yerli istehsal olub, müxtəlif regionlarda fəaliyyət göstərən və yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. Məhsulların qiymətləri digər satış mərkəzlərindən və bazarlardan daha münasib, eləcə də aztəminatlı ailələrin büdcələrinə uyğun olacaq.

"Bayram yarmarkası karantin rejiminin tələblərinə əməl olunmaqla baş tutacaq. Yarmarkada iştirak edəcək fermerlər əvvəlcədən tibbi müayinədən keçiriləcək, ödənişsiz şəkildə piştaxta, tərəzi və digər avadanlıqlarla yanaşı, tibbi ləvazimatlarla *(tibbi maska, dezinfeksiyaedici maddələr, əlcək və.)* təmin olunacaqlar. Yarmarkaya alış-verişə gələcək vətəndaşlar temperaturları ölçüldükdən sonra yarmarka ərazisinə buraxılacaqlar. Həmçinin, yarmarkanın keçiriləcəyi müddətdə təşkilatçı qurum tərəfindən yarmarka ərazisində mütəmadi olaraq dezinfeksiya işləri aparılacaq və ziyarətçilərin sosial məsafəni qorumasına ciddi nəzarət olunacaq".

Amma dediyimiz kimi, əhali yarmarkalardan razı deyil. Səbəb qiymətlərin qeyri-münasibliyidir.

**Mövzu ilə bağlı "Şərq"ə danışan iqtisadçı Fuad İbrahimov qeyd etdi ki, yarmarkaların təşkilində məqsəd liberal biznes mühitində sağlam rəqabət yaratmaqdır. Lakin məqsədə nail olunduğunu söyləmək xeyli çətindir:**

- Şəxsən mən əmin deyiləm ki, fermer kənddən bu yarmarkalara məhsul gətirir. Biz bu yarmarkalarda uzun illər paytaxtda ticarətlə məşğul olanları, bazarlarda alver edənləri görürük. Çox nadir hallarda orda kənddən gəlmiş fermer görə bilərsiz. Birincisi, fermerin yarmarkada satışla məşğul olması üçün gecələməyə yeri olmalıdır. Fermer gündüz qazandığı pulu gecələmək üçün kirayələdiyi otağa verəcəksə, daha niyə şəhərə gəlir?! Bilirsiz, çalışırlar, görüntü yaratsınlar ki, bayram ərəfəsində yarmarkalar təşkil olunur. Eşidiblər ki, yarmarka olmalıdır, təşkil edirlər. Amma yarmarkanın mahiyyətini bilmirlər. Yarmarkanın əsl mahiyyəti kəndlinin öz məhsulu ilə orada təmsil olunması, becərdiyi məhsulu özünün



> *"Hamımız da bilirik ki, qiymət o zaman bahalaşır ki, məhsul ikinci, üçüncü "əldən" keçir. Ona görə də əhali narazıdır, qiymətlərdə fərqi görə bilmir"*

satmasıdır. Hamımız da bilirik ki, qiymət o zaman bahalaşır ki, məhsul ikinci, üçüncü "əldən" keçir. Yəni yarmarkanı yarmarka vacibdir deyə, təşkil edirlər, amma yarmarka mahiyyəti qalır kənarda. Bazardan bir fərqi olmur. Bəzən yarmarkanı bazarla yanaşı təşkil edirlər. Yaxınlıqdakı bazardan çadırlar, piştaxtalar götürüb quraşdırırlar. Bazardakı satıcıları da müəyyən müddətə yarmarkaya cəlb edirlər. Bu, "feyk yarmarka" obrazıdır. Ona görə də əhali narazıdır, qiymətlərdə fərqi görə bilmir. Əsl yarmarkalar binaların həyətində fərdi qaydada təşkil olunanlardır. Ətraf bölgələrdən, rayonlardan kimin şəxsi avtomobili varsa, məhsulu yükləyir maşına, gətirib yaşayış binalarının yaxınlığında, həyətlərdə satır. Belə halda qiymətlər münasib olur, sakinlər də bazarlıq edir.

*F.İbrahimov qeyd etdi ki, hazırda Bərdə rayonunda dana ətinin kiloqramı 5-6 manatadır. Həm də laborator müayinədən keçirilmiş ətdir.* Amma paytaxta gəlib çatanadək qiymət 12-13 manata qalxır. Bərdədən Bakıya gələnədək qiymət niyə bu qədər qalxmalıdır? Olsun, 7-8 manat. Ən ucuz dana əti "Araz" marketlər şəbəkəsindədi, onun da qiyməti 10 manat 50 qəpikdir. Lakin əhali ucuz satılan ətin keyfiyyətindən arxayın deyil, ucuz ətlərin yaşlı heyvana məxsus olduğunu deyir və haqlıdırlar da. Əsl yarmarka təşkil etmək istəyirlərsə, ilk növbədə fermerin kənddən şəhərə gəlişini təmin etməli və onun yarmarkada öz məhsulunu satmasına şərait yaratmalıdırlar. Yoxsa, yarmarkada da bazardakı ticarətçilər alver edəcəksə, yarmarka boş söhbətdir.

**Məlahət Rzayeva**

# Bar ağacından dar ağacına

## *Məmməd Əfşanın Mir Cəfər Bağırov haqda tarixi-ədəbi romanı tutarlı fakt və sənədlərə əsaslanır*

Bu möhtəşəm kitab tariximizə çox ziddiyyətli, həm də çox əzəmətli bir şəxsiyyət kimi düşən Mir Cəfər Bağırov haqqında yeni nəşr olunmuş tarixi-ədəbi romandır. Əsər 50 ildən çox bir müddətdə yaxından tanıdığım, yaradıcılığını izlədiyim görkəmli şair, nasir, jurnalist Məmməd Əfşana məxsusdur. Bu kitabı kiçik bir qəzet rəyi ilə dəyərləndirmək qeyri-mümkündür. Məqsədim onun daha bariz hisslərindən gətirdiyim faktlarla onun yüksək dəyərini oxucuların diqqətinə çatdırmaqdır.



Müəllif elə əsərin başlanğıcında Ulu öndər Heydər Əliyevin Mir Cəfər Bağırova verdiyi ən böyük dəyərə söykənib onun çox müsbət və ədəbi obrazını yaradır.

**Heydər Əliyev demişdir:** "Mir Cəfər Bağırovun cəsarətli addımları olmasaydı, indi nə bu ərazidə azərbaycanlılar, nə də ki, Azərbaycan dövləti var idi".

Məmməd Əfşanın işıq üzü görmüş kitabı da bu böyük şəxsiyyəti üzərinə atılan çamırlardan təmizləmək üçün çox dəyərli bir vasitədir. Əsərin poetik başlanğıcı müəllifin yuxarıda dediyim rəngarəng yaradıcılığının gözəl nümunəsidir.

Kitabın 6 fəsil və 140 başlıqda verilməsi də müəllifin çox geniş araşdırmalarının nəticəsidir.

Kitabın I fəslində Mir Cəfər Bağırovun nəsil səcərəsinə verdiyi təhlil maraqlı olub onun möhtəşəm gələcəyindən xəbər verir.

Müəllif M.C.Bağırovun ilk fəaliyyətindən, orduda xidmət zamanı göstərdiyi böyük sücaətindən, çox gərgin məqamlardan böyük qüdrətlə çıxmasından, eləcə də insan həyatının cövhəri olan ailə, övlad münasibətlərindən geniş söhbət açmaqla həm də o dövrün Stalin, Çerçil kimi nəhəng şəxsiyyətlərinə işıq salır.

"Mübarizə Bağırovla birgə doğulmuşdu" fəslində onun xidmətlərinin birinci mərhələsindən geniş söhbət açılır. V.İ.Leninlə görüşündən, fövqəladə komissiya adlanan o dövrün ən çətin, mürəkkəb, qanlı-qadalı mübarizənin ən qaynar nöqtələrində fəaliyyət göstərən bir təşkilata rəhbərliyindən, üzləşdiyi qeyri-adi çətinliklərdən tarixi faktlara əsaslanıb söhbət açır və əsəri yazmağa başlayarkən üzləşdiyi məqamları dilə gətirir: "Mir Cəfər Bağırovun kimliyini soruşanda hər ağızdan bir avaz eşitdim. Biri millətin ən qəddar düşməni, zamanın Ostap Benderi, o biriləri dövrünün fırıldaqçısı, siyasi hakimiyyətin oyunbaşı və sair kimi səciyyələndirib kökünü-soyunu qeyri millətlərə caladılar.

Yazıçı elə bu müstəvilərdə araşdırmalar aparıb belə bir qənaətə gəlir ki, bu yalanları onu deyənlərin beyinlərinə düşmənlər pərçimləmişlər. Düz altmış ildir ki, bu deyilənlər gənc nəslin beyninə yeridilməkdədir".

Əsərdə M.C.Bağırovun nəslinəcabətindən, uşaqlıq illərindən başlayıb sonuna qədər hər şeyi saf-çürük edir, ən tutarlı faktlarla həyatının hər anına aydınlıq gətirir.

21 yaşından siyasi fəaliyyətə başlayan Bağırov çox qısa müddətdə onun ön sırasında görünməyə başlayır, Bakıda Stepan Şaumyanın rəhbərlik etdiyi daşnak qüvvələrlə mübarizəyə qalxır, hərbi qulluqda olduğu zaman Həştərxanda, Saratovda böyük nüfuz qazanır. 1920-ci ilin 28 aprelindən diviziyanın siyasi işlər üzrə müavinliyindən fəaliyyətə başlayıb az sonra N.Nərimanovun tövsiyəsi ilə Fövqəladə Komissiya adlanan və o dövrün ən çətin, ən mürəkkəb bir təşkilata rəhbərliyə keçir.

Burada fəaliyyətinin qızğın dövründə daşnak Levon Mirzoyanın fitvası ilə Azərbaycana rəhbərlik edən S.M.Kirovla da ixtilafları yaranır, lakin öz mübariz qətiyyətilə bir an mövqeyindən geri çəkilmədi. S.M.Kirovu L.İ Mirzoyanın əvəz etməsilə mübarizə daha da kəskinləşir və onun vəzifəsindən uzaqlaşması ilə başa çatır. M.C.Bağırov bir müddət Tiflisdə Su Təsərrüfatında rəiz müadaha da zənginləşmiş halda qayıdırvini işlədikdən sonra yenə əvvəlki vəzifəsinə qayıdır.

Onun Moskvaya Ali Partiya kurslarına göndərilməsi və hakim partiyanın mərkəzi orqanında çalışması da boş keçmir. Daha bir il keçmiş Daxili işlər naziri, Nazirlər Sovetinin sədri vəzifələrində çalışdıqdan sonra 1933-cü ilin sonlarında Stalinin məsləhəti ilə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilir və düz 20 il ölkənin ən çətin dövrlərində - kolxoz quruluşu, sinfi düşmənlərlə mübarizə, dəhşətli repressiya dövründə, Böyük Vətən Müharibəsi illərində cəsarətli, qorxmaz, və daxili düşmənlərdən qorudu. Azərbaycan respublikasını yüksək sənaye və kənd təsərrüfatı ölkəsinə çevirdi.

M.C.Bağırova yapılan ən böyük çamır onun repressiya illərilə əlaqədar olub Azərbaycan xalqının görkəmli oğullarını bu tufana verməsilə əlaqədardır. Lakin müəllif çox tutarlı araşdırmalarla sübut edir ki, məhz onun sayəsində xalqımızın C.Cabbarlı, Üzeyr Hacıbəyli, Səməd Vurğun kimi böyük simalarını bu tufandan xilas edib. Səməd Vurğunu "Rəhbərə salam" şeirini, Üzeyr Hacıbəylini "Koroğlu" operasını Stalinin qarşısına çıxarmaqla qoruya bilmiş, C.Cabbarlını isə hələ qasırğa başlamamış qoruya bilmişdi. Hüseyn Cavid, Mikayıl Müşviq kimi şəxsiyyətlərə gəlincə bu onun artıq qüvvəsi xaricində olub.

M.C.Bağırov şəxsiyyətinin qüdrətinə ən tutarlı dəlil isə onun müttəfiq respublikalar içərisində ən az, hətta Stalin, Mikoyan kimi nəhənglərin xüsusi himayəsində olub Azərbaycandan xeyli az əhaliyə malik Gürcüstandan (16488), Ermənistandan (16988) az (13356) nəfərin repressiya qurbanı olması bunun inkaredilməz nümunəsidir.

Kitabın II fəsli M.C.Bağırovun Böyük Vətən Müharibəsi dövründə göstərdiyi cahanşümal fəaliyyətinə həsr olunub. Elə bu fəsildə onun avantürist N.S.Xruşşovla düşmən münasibətinin əsası qoyulur. Hərbi Şuranın üzvü kimi cəbhə bölgəsinə gələn M.C.Bağırov Azərbaycan əskərlərini təhqir edən ( çəpərdən asılmış bir xiyarı dərdiyinə görə) Azərbaycan dilini bilmədiyindən əmri başa düşməyən əskərləri güllləyən onun oğlu polk komandiri Yevqeni Xruşşovu hərbi şuranın qərarı olmadan güllələmiş və sonra da Stalinə zəng edərək onun razılığını almışdır.

Bu fəsildə Azərbaycanın sürgün olunmasına dair Mikoyanın və ona dəstək verən Xruşşovun verdikləri təkliflər əsasında Siyasi Büronun qərarı və Bağırovun çox cəsarətli addımları ilə həmin qərarın icrasız qalmasının təfərrüatları öz əksini tapır. Bu sırada Dağıstanın da onun sayəsində necə xilas olmasından bəhs edilir.

Həmin dövrün görkəmli hadisələri, Azərbaycanın iqtisadiyyatında çox mühüm rol oynayan neft fondunun yaradılması, müttəfiq dövlətlərin 1943-cü il Tehran konfransı, konfransdan qayıdan Stalinin Bakıda M.C.Bağırovla görüşü, bütün ölkədə həyata keçirilən qadınların hərbi qulluğa cəlb edilməsi, aclıq, səfalət içərisində qalan ailələrə, uşaqlara verdiyi dəstəkdən, bütöv Azərbaycanın yaradılması uğrunda onun mübarizəsindən, Səttarxan, Şeyx Məhəmməd Xiyabanı hərəkatından, Sovet qoşunlarının Güney Azərbaycana yeridilməsi, cənubda qurulan müvəqqəti hökumət kimi tədbirlərdən və Sovet qoşunlarının cənubdan çıxarılması haqqında Stalinin tapşırığından necə sarsılmasından, cənublu qardaşların Sovet Azərbaycanına axınından geniş bəhs edilir.

III fəsildə Böyük Vətən müharibəsinin qələbəsindən sonra Azərbaycanda başlanan yüksəliş illərində M.C.Bağırovun coşqun fəaliyyətindən, Mingəçevirin, Samur-Dəvəçi kanalının, Abşeronun məhv olmaqda olan şanı bağlarının xilasından, nəhəng Sumqayıt epopeyasından, Samur-Dəvəçi kanalının ikinci növbəsi olan Ceyranbatan su hövzəsinin və Abşeron kanalının tikintisindən, yarımadanın çox böyük sərvəti olan zeytun bağlarının salınmasından, İstisu kurortunun yaradılmasından və bütün bunların Bağırovun şəxsi təşəbbüsləri kimi meydana gəlməsindən bəhs edilir. Kitabın IV fəsli mənfur qonşularımızın - ermənilərin Moskvadakı havadarlarının, ilk növbədə daşnak xislətli Mikoyanın fitvası ilə Azərbaycan torpaqlarını ələ keçirmək niyyətindən, buna qarşı Bağırovun apardığı böyük mübarizədən bəhs olunur. onlar ermənilərin katalikosu Q.Çolakyanı bu işə cəlb etmiş, onun Stalinin qəbuluna düşməsinə nail olmuş, hətta əvvəllər M.C.Bağırovla dost olduğuna görə bu tədbirin əleyhinə çıxan Beriyanı da Azərbaycanın bir hissəsini Gürcüstana qatmaq həvsinə gətirərək öz tərəflərinə çəkə bilmişdilər. Onlar əvvəlcə Dağlıq Qarabağın Ermənistana verilməsi üçün Ermənistan KP Mərkəzi Komitəsinin birinci katibi Artunyanın Sov.İKP MK-ya məktubla müraciəti, bu xahişə o zaman Stalinə xüsusi yaxınlığı ilə tanınan G.Malenkovu da bu işə cəlb edirlər və onun vasitəsilə Stalinə imzalatmaq ərəfəsində bu məsələdən xəbər tutan M.C.Bağırov onların niyyətini altüst edir, daha sonra xaricdəki ermənilərin Ermənistana köçürülməsi məsələsini irəli sürərək, orada yaşayan 150 min azərbaycanlını Kür-Araz ovalığına yerləşdirməklə onları Çita vilayətinə sürgün edilməsindən xilas edir və Stalini həmin niyyətdən döndərə bilir.

Kitabın V fəsli "Kişiliyi, mərdliyi sevən kişi" adı ilə M.C.Bağırovun xarakter keyfiyyətlərini, onun xarakter bütövlüyünü bədii obrazlarla vəsf edir. Fəsildə müəllif M.C.Bağırovun ayrı-ayrı adamlarla, sadə kəndlidən başlamış professorlarla Bahadır Eyvazova, Mikayıl Rəfiliyə, Əhməd Seyidova qədər çoxsaylı görüşlərindən bəhs edib onun yüksək insanlıq keyfiyyətlərini, bütöv şəxsiyyətini bədii obrazlarla vəsf edir və sonda "Bəli, Bağırovun həyata, insana, dünyaya sevgisi də, nifrəti də kişiyana idi. Sevəndə də kişi kimi sevirdi, nifrət edəndə də kişi kimi nifrət bəsləyirdi. Onun bütün həyat tərzi kişilik üstə qurulmuşdu. Kişi kimi yaşamış və kişi kimi ölməyi də bacaran idi" sözləri ilə təcəssüm edir.

Kitabın son VI fəsli böyük dövlət xadimlərinin davranışlarından, xüsusilə öz avantüristliyilə hakimiyyətə gəlmiş Nikita Xruşşovun böyük Stalinə qarşı təşkil etdiyi onun varis seçmək niyyətlərinə qarşı sui-qəsdlərindən, bunların acı nəticələrindən bəhs edir. Xüsusilə Stalinin ölümündən, onun daha çox ehtiyat etdiyi Beriyaya qarşı qurulan tələdən və onun məhvindən, Xruşşovun Beriya və Bağırovla düşmənçiliyinin səbəblərindən və onların hər ikisinin Xruşşov avantürizminin qurbanı olmasından bəhs edir. M.C.Bağırov erasına son qoyan 1953-cü il iyul plenumunda baş verənlər fəfərrüatı ilə nəql edilir. M.C.Bağırov "Kuybışevneft"ə göndərilir və 3 aya yaxın sakitcə işləyir. Lakin İ.Əfəndiyev adlı keçmiş Dövlət Təhlükəsizliyi orqanında işləmiş bir zabitin Bağırovun qatı düşmənlərindən olan Xruşşova yazdığı məktubu vəziyyəti dəyişir. Xruşşovun ona olan nifrətini alovlandırır. Bəli, yenə özümüzü kəsən qılınc!

Müəllif İ.Əfəndiyevin məktubunu detallarına qədər nəzərdən keçirib onu təhlil edir, həmin məktubun dərhal Xruşşova çatdırılması da çox müəmmalı suallar doğurur.

Müəllif M.C.Bağırovun məhkəməsinə hazırlığı, Xruşşovun buna bilavasitə nəzarəti, Azərbaycanın yeni rəhbərləriniun təzyiqindən geniş bəhs edir. Bakıda M.C.Bağırovun məhkəməsinin təşkili, onunla işləyib cinayətlərində ona yaxından kömək edən daha 5 nəfərin - Markaryanı, Qriqoryanı, Atakişiyevi, Borşovu və Yemelyanovu da müttəhimlər kürsüsündə oturdulması, məhkəmədə ona qarşı quraşdırılmış çoxsaylı böhtanlar, şantajlar təşkil olunur və onların hər birini M.Bağırov böyük mərdanəliklə rədd edir.

Məhkəmədə baş ittihamçı Rudenkonun özünü də, onun suallarına verdiyi sərt və tutarlı cavablarla sarsıldır və onun məhkəmədə çıxış edənlərin çoxu sənə "kişi" deyə müraciət edir. Deyə bilərsinizmi, niyə sənə "kişi" deyirlər sualına, Bağırov bütün zəhmini gözlərinə doldurub nifrətli baxışları ilə Rudenkonu süzdü və ucadan dedi: "Bu vəziyyətimdə mənim kişiliyimə sən ömrün boyu çata bilməzsən. Çünki, vəzifən, hökmün olsa da kişiliyin yoxdur".

Onun bu cavabı Rudenkonu elə sarsıdır ki, dərhal tənəffüs verməyə məcbur olur.

Müəllif məhkəmənin gedişini mükəmməl təhlil edir, ittiham aktını verir. Məhkəmənin sədri Ceptsov ölüm hökmünü oxuyarkən bu hökmü olan digər müttəhimlər Markaryan, Borşov, Qriqoryan, Atakişiyev yerə çökür və titrəməyə başlayırlar, təkcə Bağırov 15 günlük məhkəməni sayıq, sakitcə, adi hal kimi qarşılayır.

M.C.Bağırovun məhkəmədən son xahişi oğlu Cahangirin məzarını ziyarət etmək və ailəsi ilə 30 dəqiqəlik görüş olur və hakim buna icazə verir. Qəbr üstündə hamı heyrət içində ömründə ağlayan görmədikləri Bağırovun hıçqırıqlarını ürək ağrısı ilə dinləyir.

Ölüm hökmündən bir ay sonra ona həyat yoldaşı Yevqeniya Bağırova və oğlu Cenlə görüşməyə icazə verilir. Vaxtın uzadılması onların SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri Voroşilovun adına yazdıqları əfv ərizəsi idi. Həmin vaxt məzuniyyətdə olan Voroşilovu əvəz edən Ermənistan SSR Ali Sovetinin sədri ərizəyə rədd cavabı verib.

Müəllif Bağırovun qətlindən sonra Yevqeniyanın və Cenin acınacaqlı həyatlarını, M.C.Bağırova ölüm kamerasında keçirdiyi dəhşətli günləri də nəql edib oxucuya çatdırır. Ölüm kamerasındakı Bağırovun düşüncələri, bütün olubkeçənləri, ağlından keçirdiyi hadisələr öz təsvirini tapır və onu güllələməyə aparılarkən əlləri və gözləri bağlı M.C.Bağırova verilən "müttəhim Bağırov, bəlkə deməyə ehtiyac duyduğun son söz, son xahişin var? sözlərinə verdiyi cavab: "Biləklərimi və gözlərimi açın. Mən əllərim və gözlərim açıq ölmək istəyirəm. İkinci xahişim də budur ki, gülləni arxadan vurmayın. Gözlərim baxa-baxa ürəyimin başından vurun" cavabı onun mərdanəliyinin son akkordu idi.

*Möhtərəm oxucu! Xalqımızın tarixinin böyük bir dövrünü öz möhtəşəm rəhbərliyi ilə idarə edən bu böyük şəxsiyyətə həsr edilmiş bu epopeyanı tapın, oxuyun. Bunun sizə həyatınızın keçməkeşlərini anlamaqda əvəzsiz yol göstəricisi olacağına şübhə etməyin.*

**Sadıq Murtuzayev,**
**Filologita üzrə fəlsəfə doktoru**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ordumuz təlimlərlə güclənir və təkmilləşir

## *Qarabağda terrorçular baş qaldırarsa anında cavabları veriləcək*

44 günlük Qarabağ savaşından 4 ay sonra Qarabağ və ətrafında yenidən silah səsləri eşidilməyə başlayıb. Martın 15-dən etibarən Azərbaycan Silahlı Qüvvələri 10 min nəfərədək şəxsi heyətlə və çoxsaylı müasir zirehli texnikalarla əməliyyat-taktiki təlimlərə start verib.

Müdafiə Nazirliyinin məlumatına görə, əsasən dağlıq-meşə və çətin relyefli ərazilərdə keçirilən təlimlərdə məqsəd Qarabağdakı terrorçu dəstələrə, həmçinin qanunsuz silahlı qruplaşmalara qarşı anti-terror əməliyyatları üzrə tapşırıqları icra etməkdir. Xatırladaq ki, bu, Azərbaycan Ordusunun 44 günlük müharibədən sonra keçirdiyi ilk irimiqyaslı hərbi təlimlərdir. Təlimlərdə qarşıya qoyulan vəzifələr yeni və mühümdür. Ordumuzun müharibədən əvvəl vaxtaşırı olaraq keçirdiyi irimiqyaslı hərbi təlimlərdə qarşıya qoyulan döyüş tapşırıqları hücum əməliyyatları üzərində qurulmuşdu. Ancaq indi senari dəyişib və Ordumuzun qarşısında dayanan başlıca vəzifə bölgədə müharibənin nəticələrindən sonra yaranmış status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Ermənistanda və Qarabağda revanşist qüvvələrin varlığı bizə bəllidir. Əgər yaxın zamanda qanunsuz birləşmələrin dinc yolla tərksilah edilməsi baş verməzsə, onların güc yolu ilə tərksilahı qaçılmaz olacaq. Qarabağdakı təhlükəli məqam ötən gün Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov tərəfindən də gündəmə gətirilib. Nazir ATƏT-in sədri Ann Linde ilə görüşdə vurğulayıb ki, Ermənistan gecə qaranlıq vaxtda tikinti üçün nəzərdə tutulmuş maşınlarla hərbçilərini Azərbaycana göndərməyə cəhd edir. Onun sözlərinə görə, bu məsələ BMT Baş Assambleyasına çatdırılıb. Bununla bağlı beynəlxalq medianın materiallarına da istinad edilib: ”Ermənistanda əsgər valideynləri də övladlarının hərbi xidmət üçün Qarabağa göndərilməsinə etiraz edirlər, aksiyalar keçirirlər. Bütün dünya mediası bunu görür. Beynəlxalq təşkilatlar bu məsələdə Ermənistana təzyiq etməli, hər bir tərəf üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir”. Xatırladaq ki, bir müddət öncə Ceyhun Bayramovun Ermənistanın üçtərəfli bəyanata zidd olaraq, sabitliyin pozulmasına yönələn fəaliyyəti, o cümlədən, terrorçu-sabotaj qrupunun Azərbaycan ərazilərinə göndərilməsinə dair BMT Baş katibinə məktubları Baş Assambleya və Təhlükəsizlik Şurasının sənədləri kimi dərc olunub. Xarici İşlər Nazirliyinin məlumatına görə, Ceyhun Bayramov Ermənistan silahlı qüvvələrinin şəxsi heyətinin gizli şəkildə ”Laçın dəhlizi” vasitəsilə və buradakı Rusiya sülhməramlılarının nəzarət prosedurlarından yayınmaq məqsədilə mülki nəqliyyat vasitələrində Azərbaycan ərazilərinə göndərilməsi barədə məlumatı BMT rəhbərliyinin diqqətinə çatdırıb. Nazir Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərində yerləşdirilməsinin beynəlxalq öhdəliklərin kobud şəkildə pozulması halı olduğunu vurğulayıb.

Azərbaycan tərəfi hərbi təlimlərdə məqsədin öz ərazilərimizdə baş verə biləcək terror aktlarının qarşısını almaq olduğunu açıq-aşkar vurğulasa da, Ermənistan siyasiləri bu təlimləri ”yeni müharibəyə” hazırlıq kimi dəyərləndirirlər. Vətən savaşından sonra ilk dəfə keçirilən genişmiqyaslı hərbi təlimlərdən ciddi təşvişə düşən Ermənistan rəsmiləri Azərbaycan Ordusunun Qarabağla kifayətlənməyəcəyini, Yerevana qədər gələcəklərini iddia edirlər. Hətta Azərbaycana ”göz dağı” vermək niyyətinə düşən Ermənistan məğlub və dağılmış ordusu ilə ”hərbi təlim” keçirəcəklərini də bəyan edib.

> "Sülh şəraitində Silahlı Qüvvələrimizi elə həddə çatdırmalıyıq ki, bundan sonra heç kim bir qarış torpağımıza göz dikməyə cəsarət etməsin"

Ermənistan Müdafiə Nazirliyinin məlumatına əsasən, 2021-ci ilin birinci yarısının planına uyğun olaraq, Ermənistan silahlı qüvvələri bütün əməliyyat istiqamətləri üzrə birləşmiş silahlı qruplar və xüsusi təyinatlıların iştirakı ilə taktiki və peşəkar manevrlər keçirəcək. Rusiya Xarici İşlər Nazirliyi də Azərbaycanın bölgədəki hərbi təlimləri ilə bağlı bəyanat yayıb. XİN-dən vurğulanıb ki, Azərbaycan Ordusunun təlimləri sabitliyə və təhlükəsizliyə risk yaratmır: ”Hərbi təlimlər, adətən, bütün Cənubi Qafqaz ölkələri tərəfindən keçirilir. Bu təlimlər müntəzəm əsasda keçirilir və müvafiq məlumatlar maraqlı tərəflərə vaxtında çatdırılır. Bizdə olan məlumata görə, Azərbaycandakı hərbi təlimlər planlı xarakter daşıyır və qoşunların döyüş hazırlığının yüksəldilməsinə istiqamətlənib”.

Hərbi ekspertlər də bildiriblər ki, Azərbaycan Ordusunun əməliyyat-taktiki təlimləri heç kimə qarşı yönəlməyib. Bu, planlı təlimdir. Təlimlər qarşıya qoyulacaq tapşırıqları yerinə yetirmək üçün hazırlıq prosesidir. Nəzərə alaq ki, ərazi bütövlüyümüz bərpa edilsə də, Ermənistanla arasında hələlik sülh müqaviləsi yoxdur. Bundan başqa azad edilən torpaqlarımızda bərpa işləri aparıldığı üçün vətəndaşlarımız hələ məskunlaşmayıb. Hələlik boş olan əraziləri terror qrupları və quldurlar çirkin məqsədləri üçün istifadə edə bilərlər. Düzdür, sülhməramlılar orada xidmət edir. Lakin bunun baş verməyəcəyinə heç kim zəmanət vermir. Çünki Ermənistanın daxilindəki siyasi-iqtisadi və hərbi xaos ermənilərin təxribat törətməsi ehtimalını hər zaman aktual edir. Ona görə də indiki təlimlər ”Qarabağdakı silahlı qruplaşmalar qanunsuzdur və onlara qarşı addımlar anti-terror xarakteri daşıyacaq” mövqeyinin hərbi müstəvidə nümayiş etdirilməsidir. Masada istəyimizə nail olmasaq, anti-terror əməliyyatı Xankəndidə yox, erməni silahlı birləşmələrinin Azərbaycan ordusu ilə üzbəüz dayandığı ətraf ərazilərdə də keçirilə bilər və bu, ruslara qəti mövqe nümayiş etdirmək məqsədi daşıyacaq.

**AMİP sədri, politoloq Arzuxan Əlizadə ”Şərq”ə açıqlamasında bildirib ki, Vətən müharibəsində Azərbaycan Ordusu ən yeni üsullardan, taktiki gedişlərdən və müasir silah-sursatlardan istifadə etməklə Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Partiya rəhbərinin sözlərinə görə, tam əminliklə demək olar ki, erməni ordusu mövcud deyil:** ”Ermənistanın ordu potensialını bərpa etmək üçün on illər və böyük miqdarda vəsait lazımdır. Belə məqamda düşmən tərəfin Azərbaycan Ordusunun başlatdığı 10 minlik hərbi təlimlərdən narahatlıq duyması anlaşılan və təbiidir. Müharibədən öncə Ermənistan tərəfi Türkiyə və Azərbaycanın birgə təlimlərindən də qorxu ilə bəhs edir, təşvişə düşdüyünü açıqca hiss etdirirdi. Lakin vurğulandığı kimi, martın 18-dək davam edəcək hərbi təlimlərdə məqsədimiz Qarabağdakı terror ehtimalına qarşı önləm almaqdır. Erməni separatçıları bir neçə dəfə təxribata əl atıblar və bundan sonra atmayacaqlarına heç kim təminat vermir. Həm də erməni quldurlarının Qarabağın müxtəlif bölgələrinə daşınması ilə bağlı informasiyalar yayılır. XİN rəhbəri səviyyəsində məsələyə münasibət bildirilməsi də vəziyyətin ciddiliyindən xəbər verir. Qarabağdakı ermənilər, o cümlədən Ermənistandakı siyasilər revanşist düşüncədən birdəfəlik vaz keçməlidirlər. Başıpozuq xunta rejiminin rəhbərlərinin, separatçıların təhrikinə aldanmamalıdırlar. ”Ermənistan Ordusu yenidən formalaşır” tipli bəyanatlar isə tamamilə uydurma və yalandır. Erməni ictimaiyyətinin məsuliyyətsiz fikirlər səsləndirən siyasi fiqurların ardınca getməsi onları bütövlükdə məhvə sürükləyir. Azərbaycan Ordusu isə istədiyi vaxt, beynəlxalq hüququn da verdiyi dəstəklə rəsmi sərhədləri daxilində anti-terror əməliyyatları keçirə bilər. Əlbəttə, biz yerimizdə dayanmamalıyıq, çünki hələ hər şey bitməyib. Ordumuzu texniki və komanda heyəti baxımından durmadan gücləndirməli, daha mobil səviyyəyə gətirməliyik. Belə təlimlər də ordumuzun güclənməsinə fayda verir”.

*A.Əlizadə vurğulayıb ki, Ermənistan tərəfi ”hərbi təlim” şousu ilə erməni cəmiyyətini mümkün qədər sakitləşdirməyə çalışır:* ”Göstərmək istəyir ki, guya, hələ erməni ordusu qalır, gücü yerindədir və lazım olan anda müqavimətini ortaya qoyacaq. Əlbəttə, bunun yalan olduğunu erməni cəmiyyəti özü də yaxşı bilir. Xatırladım ki, Ermənistanda illik büdcənin müzakirəsi zamanı ən az vəsait orduya ayrılıb. Siyasilər vurğulayıblar ki, madam ki, erməni ordusu həqiqətdə yoxdur və heç nəyə qadir deyil, o zaman böyük məbləğdə vəsait ayrılmasına da ehtiyac yoxdur. Onsuz da ölkə iqtisadiyyatı çökmüş durumdadır. Bütün bunlar bir daha sübut edir ki, işğalçı Ermənistan ordusunun yenidən dirçəldilməsinə ermənilərin özü belə inanmır”.

**Təlimləri ”Şərq”ə dəyərləndirən ehtiyatda olan polkovnik Cəlil Xəlilov da bildirib ki, zabit və əsgərlər yeni texnikaları tətbiq etməyi öyrənməli, hərbi bilgilərə yiyələnməli, döyüş taktikalarını dərindən mənimsəməlidir. Ekspertin sözlərinə görə, ordu təlimlərlə güclənir və təkmilləşir:** ”Hərbi təlimlərin dağlıq və meşəlik relyefdə keçirilməsi olduqca önəmlidir. Regiondakı durum hamıya bəllidir. Hər an Qarabağın məlum bölgəsində erməni təxribatı, terrorçu qrupların qanunsuz fəaliyyəti ilə rastlaşa bilərik. Ona görə də silahlı qüvvələrimiz daim hazırlıqlı vəziyyətdə olmalı, ayıq-sayıqlıqlarını itirməməlidir. Torpaqlarımızı işğaldan azad etdikdən sonra qarşımızda duran ən böyük vəzifə ərazilərimizi düşməndən qorumaq və istənilən təcavüz cəhdinə ən sərt şəkildə cavab verməkdir”.

*C.Xəlilov hesab edir ki, düşmənlərimiz və onların havadarları Azərbaycan Ordusunun gücünü hər zaman hiss etməlidir:* ”Təlimlər qonşu ölkələrə hərbi qüdrətimizi unutdurmayacaq. Sülh şəraitində Silahlı Qüvvələrimizi elə həddə çatdırmalıyıq ki, bundan sonra heç kim bir qarış torpağımıza göz dikməyə cəsarət etməsin”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Ailə həkimlərinin sayı çox azdır

## Amma gec-tez bu institut tam formalaşmalıdır



*İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Tibbi iddialar departamentinin rəhbəri Vüqar Qurbanov bildirib ki, hazırda Azərbaycanda ailə həkimi kimi fəaliyyət göstərə biləcək həkimlərin sayı azdır. Onun sözlərinə görə, əsas hədəflərdən biri ailə institutunun tam tərkibdə fəaliyyətə başlamasıdır. İlkin mərhələdə Mingəçevir, Yevlax və Ağdaşda bu layihə həyata keçirilməyə başlanılıb.*

Orada agentliyin tabeliyində olan müəssisələrdə ailə sağlamlıq mərkəzləri yaradılıb: "Bu, əvvəllər sahə üzrə fəaliyyət göstərən sahə terapevtləri, sahə pediatrları və qadın məsləhətxanalarında fəaliyyət göstərən ginekoloqları özündə cəmləşdirdi. Əsas məqsəd odur ki, ailə sağlamlıq mərkəzləri, ailə həkimi institutu tam olaraq formalaşsın. Ailə sağlamlıq mərkəzlərinin məqsədi xəstəxanaların üzərinə düşən yükü azaltmaqdır. Ölkənin gələcək tələbatını nəzərə alaraq, Səhiyyə Nazirliyi ilə əməkdaşlıq şəraitində Azərbaycan Tibb Universitetində ailə həkimin hazırlanması ilə bağlı fəaliyyətə başlanılıb. Həkimlərimiz artıq ailə həkimi olaraq da yetişməyə başlayırlar. Gələcək dövrdə ailə həkimi institutu tam formalaşacaq".

"Ailə həkimi" ifadəsinin hansı məna daşıdığını, ailə həkiminin hansı funksiyaları daşıyacağını bilməyənlər də var. Əslində, burada çətin anlaşılan məsələ yoxdur. Uşaq anadan olandan sonra yaşadığı ərazi üzrə poliklinika şöbəsində qeydiyyata salınır (salınmalıdır). Və poliklinika tərəfindən uşağa həmin sahəyə təhkim edilmiş pediatr təyin olunur. Bu, bildiyimiz uşaq həkimidi. O həkim ki, qrafikə uyğun olaraq

"Ailə həkimi öz xəstəsini uzun illər nəzarətdə saxlayır və onun keçirdiyi bütün xəstəliklər barədə məlumatlı olur"

mənzilə gəlməli, körpənin səhhəti ilə maraqlanmalı, vaxtlı-vaxtında peyvənd olunması məsələsini valideyn qarşısında qaldırmalı və buna nail olmalıdır. Həmçinin sahə həkimi - həm də uşaq həkimi ilk çağırışa gələndir. Körpədə nəsə bir problem yarandıqda valideyn ilk növbədə sahə həkiminə müraciət edir. Müalicəni də sahə həkimi təyin edir. Sovet vaxtı belə idi. Şəxsən bizim (müəllif M.Rzayeva) sahə həkimimiz vardı, familiyası indi də yadımdadır - Quliyeva. Həmişə məhz "doktor Quliyeva" evimizə gələrdi, bizimlə maraqlanardı. Polklinikaya mürciət etmək lazım gələndə də onun kabinetinə gedərdik (2 saylı şəhər poliklinikasının uşaq şöbəsi). İndi sahə həkiminin adını "ailə həkimi" qoyublar.

**Ailə həkimi nədir və fəaliyyəti nədən ibarət olacaq, bu barədə "Şərq"ə həkim-terapevt Elvira Mirzəyeva məlumat verdi. Onu da qeyd edək ki, Elvira həkim artıq ailə həkimi kimi fəaliyyət göstərir:**

-Ailə həkimi ali tibbi təhsil almış, əhaliyə (cinsindən, yaşından və xəstəlik növündən asılı olmayaraq) ilkin profilli tibbi-sosial yardım göstərməyə hüquqi səlahiyyəti olan mütəxəssislərə deyilir. Başqa sözlə, ailələr bütün xəstəliklərini ailə həkimlərinə etibar edə bilərlər. Ailə həkimi öz xəstəsini uzun illər nəzarətdə saxlayır və onun keçirdiyi bütün xəstəliklər barədə məlumatlı olur. Bir sözlə, ailə həkimi ailəyə xidmət edir və o, ailənin etibarlı həkimi olur. Ailə həkiminin tibbin bütün sahələrindən xəbəri olmalıdır. Ailə həkimi sağlamlıqla bağlı bütün problemlərin həllində iştirak edir, müəyyən müddətdən sonra ailənin bir üzvü kimi olur, həmin ailənin xəstəlik problemləri də nəzərəçarpacaq dərəcədə azalır. Çünki ailə həkimi ailədə olan vərdişlərdən, genetikada olan problemlərdən xəbərdar olduğundan vaxtında profilaktik tədbirlər görə bilir. Həmçinin həmin ailənin düzgün qidalanmasına yardımçı olur. Bu da öz növbəsində qidalanma ilə sıx şəkildə bağlı olan xəstəliklərin azalmasında özünü büruzə verir. Ailə həkimi pasiyentinin keçirdiyi bütün xəstəliklərdən xəbərdar olur, bu isə insana hansısa bir müalicəni tətbiq etməyin düzgün olub olmamasını müəyyən etmək imkanını verir. Ailə həkimi ailə üzvləri ilə yaxın olduğundan bu ailədəki münasibətlərə də yaxşı bələd olur. Bu xüsusiyyət onun ailənin psixoloqu rolunda da çıxış etməsinə kömək edir. Ailə həkimindən yüksək ixtisaslı peşəkar mütəxəssis olmaqla yanaşı həm də pasiyentlərlə sadə dildə danışmağı bacarmaq, müayinə və müalicənin bütün etapları haqqında dolğun məlumat vermək, xəstəni "eşitmək" talantına sahib olmaq da tələb olunur.

**E.Mirzəyeva qeyd etdi ki, ailələr öz həkimlərini yaşadıqları ərazi üzrə seçəcəklər.** Ailə həkimi ambulator xidmət göstərəcək, lazım gəldikdə stasionar müalicə təyin edəcək, xəstəni müalicə müəssisəsinə yönləndirəcək. Əvvəllər bu işi sahə həkimləri yrinə yetirirdi. İndi isə ailə həkimləri olacaq. Hesab edilir ki, ailə həkimi institutunun formalaşması əhalinin sağlamlığının təminində və cəmiyyətin sağlam inkişafında böyük əhəmiyyət daşıyacaq. Odur ki, ailə həkimini seçməyə tələsək.

**Məlahət Rzayeva**

## Sakit olun, təlaşlanmayın!

### Azərbaycanda koronavirusun üçüncü dalğası yoxdur



**Avropada koronavirusun üçüncü dalğası yayılır.**

Artıq bir neçə ölkədə üçüncü dalğanın başladığı söylənilib. Xüsusilə də Almaniya və İtaliya kimi ölkələrdə yenidən karantin rejiminin qaydaları sərtləşdirilib. Bəs, Azərbaycanda COVİD-lə bağlı vəziyyət necə olacaq? "Şərq"lə həmsöhbət olan infeksionist-hepatoloq Sakit Hümbətov üçüncü dalğanın olmadığını söyləyib: "Yalnız bir COVİD dalğası var. Onun da qarşısının alınması məqsədilə tədbirlər görülür. Qaydalara riayət olunmayanda da, yoluxanların sayı çoxalır. Bu qədər".

**Samirə**

## Hakimlər psixoloji testdən keçməlidirlər

### "Yuxarı distansiya hakimlərinin isə dil bilikləri yoxlanılmalıdır"



**"Avropa Məhkəməsi indiyə kimi Azərbaycan dövlətinə qarşı çıxardığı təqribən 270-ə yaxın qərar və bundan sonrakı qərarlar üzrə cərimələr, həmin qərarı qəbul edən və ya qəbul edəcək hakimlər tərəfindən ödənilməlidir.**

O zaman qərar qəbul edəndə sağlam başla düşünəcəklər". Bu sözləri hərbi ekspert Ədalət Verdiyev özünün "Facebook" səhifəsində yazıb. Onun fikrincə, səslənən təklif effektiv olacaq. **BDU-nun Hüquq fakültəsinin dekanı, professor Əmir Əliyev "Şərq"ə açıqlamasında səslənən təklifə münasibət bildirdi:** "Qərarı birbaşa Avropa Məhkəməsi qəbul etmir. Əvvəlcə aşağı ən aşağı distansiya, yəni rayon məhkəməsi işə baxır. Sonra isə məsələ pillərari formada yuxarı distansiyalara qalxır. Yəni hər kəsdən əvvəl həmin rayon məhkəmələrinin hakimləri öz işlərinə qarşı diqqətli yanaşmalıdırlar. Əlbəttə, onların üzərində maddi məsuliyyət də olmalıdır. Lakin, fikrimcə, daha ciddi addımlar atılmalı, mexanizm təkmilləşməlidir. Məsələn, hakimlər bir neçə testdən, o cümlədən psixoloji testdən keçməlidirlər. Yuxarı distansiya hakimlərinin isə dil bilikləri yoxlanılmalıdır".

**Kənan**

# Koronavirus Şərq xalqları üçün faciə olmamalıdır

### Professor: "Onun adı gələndə ruhi sarsıntı, stress keçirmək, depressiyaya düşmək, həyatdan əl üzmək lazım deyil"

*"Müxtəlif sosial şəbəkə, eləcə də Qərb mətbuatının COVİD-19, onun yayılma intensivliyi və proqnozuna münasibətdə "təbliği fikirləri" ən yaxşı halda insanın dərin ruhi sarsıntı və depressiyaya düşməsinə səbəb olur. Əslində isə real vəziyyət, bu məqsədli təbliğatın tamamilə əksidir".*

**Bu sözləri tibb elmləri doktoru, professor Musa Qəniyev "Şərq"ə açıqlamasında deyib.** Professor bildirib ki, hazırda dünya ölkələri arasında olan mövcud "şəffaf sərhədlər" ən sərt karantin tədbirləri tətbiq edilsə belə, istənilən viral infeksiyanın "İldırım sürətilə" yayılması və xronoloji bioritm dəyişikliyinə görə, ən uzağı 6 ay müddətinə (22 martdan 22 noyabrın tamamına qədər) kollektiv immunitetin yaranmasına mütləq şəkildə səbəb olmalıdır: "Hətta vaksinasiya aparılmasa belə. Halbuki, dünya çapında artıq 3-cü aydır ki, kütləvi vaksinasiyaya start verilib. Digər tərəfdən, indi nə antik dövr, nə də 15 əsr deyil. Viral infeksiyaların aylar və illərlə davam etməsinin həlledici şərti, yəni insanlara bir şəhər və ya ölkədən digərinə getmək, yəni infeksiyanın yayılması üçün aylarla vaxt lazım gəlsin. Söylədiklərim, hətta COVİD-19-un sadəcə davamı dinamikasının izlənməsində belə öz təsdiqini tapır. Diqqət edin: hazırda koronavirusa ümumi yoluxma 120 milyonun altı, ölüm nisbəti isə 2,6 milyonun üstündədir, yəni cəmi 3 faizdir. Azərbaycanda isə bu infeksiyadan ölüm ümumilikdə 1,3 faizdir. Odur ki, istər yazılan rəqəm, istərsə də məqsədli təbliğat hər bir halda az da olsa real məntiqə istinad etməlidir. Vaxtı ilə Amerikanın sevilən, mərhum prezidenti Con Kennedi demişdir: "Dünyada ən üstün təhsil sistemi Sovet təhsil sistemidir. Çünki insanlarda fərdi düşüncə və təfəkkür tərzi formalaşdırır. Amerikanın savadlı vətəndaşı belə, SSR-i dedikdə Moskva və rus başa düşür. O ölkənin hətta adi vətəndaşı belə, Amerikanı, bizim şəhər və ştatlarımızın adını, hətta amerikalıdan belə yaxşı bilir. Odur ki, bu ölkəyə nüvə silahı ilə deyil, bu təfəkkürün yaranmasına xidmət edən mexanizmləri məhv etmək yolu ilə qalib gəlmək olar".



**Tibb elmləri doktoru əlavə edir:** "Mən bu infeksiyanın 1 ildən artıq davam etməyəcəyi barədə dəfələrlə demişəm. Hətta mən onun Şərq xalqları üçün faciə olmadığını, onun 2-ci, 3-cü və s. dalğalarının olmayacağı, bu virusun yaxın 10 ilə aqressiv mutant ştampının əmələ gəlməsinin mümkünsüzlüyü haqqında dəfələrlə yazmışam. Təkrar edirəm, bunlar mənim xəyali düşüncələrimin məhsulu deyil, elmi həqiqətdir. Hətta adi statistik təhlil belə, söylənilənləri təsdiq edir. Məsələn, cəmi 8 ay əvvəl, yəni COVİD-19-un dinamik artım dönəmində, kritik durumda olanlar xəstələrin 5 faizini təşkil etdiyi halda, hazırda bu nisbət 0,4 faizə enib. Başqa sözlə, virusun virulentlik və letallıq əmsalı 12,5 dəfə azalıb. Artıq COVİD-19 koronaviruslar ailəsinin OC43, 229E, NL63, HUK1 kimi təhlükəsiz ştamlarından birinə çevrilməkdədir. Odur ki, koronavirus adı gələndə ruhi sarsıntı, stress keçirmək, depressiyaya düşmək, həyatdan əl üzmək lazım deyildir. Neqativlik, hətta bəd şeylər haqqında düşünmək belə, xəstəlik və ölümün ilkin səbəbidir. Özü də müalicə olunmaz səbəbi. Pozitiv, xoş niyyətli olun və xoş şeylər haqqında fikirləşin, təbii ki, xəstələnmək istəmirsizsə..."

**Aynurə Pənahqızı**

# Çərəzlər gəl-gəl deyir



## *Çeşidlər çoxdur, qiymətlərə yaxın durmaq olmur*

Novruz bayramına sayılı günlər qalıb. Artıq əksəriyyət bayram hazırlığı görüb. Adət-ənənəyə uyğun Novruzda süfrə bol-bərəkətli olmalı, növbənöv ərzaqlar düzülməlidir. İndi də vitrinlərdə ən çox çərəzlər, ləpələr, xurmalar var. Xanımlar şirniyyat - şəkərbura, paxlava bişirməyə başlayıb. Elə bu məqamda aktual bir mövzu gündəmə gəlir. Görəsən, yarmarkalarda, marketlərdə qiymətlər necədir? Ən sərfəli bayram alış-verişini hardan etmək olar?

Bazardakı vəziyyəti öyrənmək və qiymətlərlə tanış olmaq üçün Yasamal rayonunda yerləşən bir neçə marketə baş çəkdik. Əvvəlcə metronun "Nizami" stansiyası yaxınlığında yerləşən ərzaq mağazalarında olduq.

İlk daxil olduğumuz dükan bayram məhsullarını satışa çıxarıb. Gördüyüm qədərilə qiymətlər bir az bahadır. Quru meyvələr və çərəzlər hətta marketlərdəkindən də artıq qiymətə satılır.

Bir neçə sual verib, mallara tələbatın olub-olmadığını soruşdum. Lakin satıcı sualları cavablandırmaq istəmədi, işlərinin çox olduğunu söylədi.

Yolboyu uzanan mağazalara göz gəzdirdim. Bəli, səmənilər də vitrinlərdəki öz yerlərini alıblar. Bir də gül dükanlarında yazın simvolu olan çiçəklər, bənövşəyə bənzər dibçək gülləri diqqət çəkir.

Onların qiyməti 2, ya da 3 manatdan başlayır. Bu da məkana görə dəyişir. Əslində isə üç-dörd il öncə həmin güllərin qiyməti sadəcə 50 qəpik idi.

Nə deyək? Yəqin illər ötdükcə onlar da dəyişir. Hamımızın sevdiyi Nərgiz güllərini hər metrostansiyanın çıxışında görə bilərsiniz. Bir dəstəsi 1 manatdan başlayan qiymətlərə satılır. Yeri gəlmişkən iradımı da bildirim. Nərgiz dəstələrində sadəcə 3 gül yerləşdirilir, qalanı isə yarpaqdır. Nə isə... Keçək ərzaq məhsullarına...

Bir dükan tapmaq ümidi ilə yolboyu irəlilədim, sonra yenidən öz tanıdığım yerlərə qayıtmaq qərarına gəldim. "Sovetski"nin dar küçələri ilə yuxarı qalxdım. Burda bir meyvə mağazasına girdim. Alıcı kimi müşahidə edib, qiymətlərə baxdım. Düzü, adi günlərdən fərqləndiyini düşünmürəm.

### Marketlərdə hətta qoz ləpəsi 35 manatdan satılır

Məsələn, alma 1.50, heyva isə 2.50 AZN-dən başlayır, nar isə təxminən 3 ilə 4 manat arasında dəyişir. Əgər süfrənizdə fərqli təamlardan dadmaq istəyirsinizsə, göbələyin qiyməti də 3 manatdır. Portağal 2 manat, mandarin 1.90, göygöyərtilər 20, ya da 15 qəpikdir.

Səmənilərin isə qiyməti formasına və ölçüsünə görə dəyişir. İstəyən sadə, ürək, ya da buta formasında ala bilər. Təbii, o sizin büdcənizə baxır.

Həmin dükanın yanında bir də çərəz mağazası var.

Ora da göz gəzdirdim. Misal üçün, qovrulmuş fındığın kilosu 13 manatdır, gavalı qurusu 9 manat, gilas qurusu 12, vişnə qurusu 11.50, ərik qurusu 5 manatdır. Kişmişlərin qiyməti isə 5 AZN-dən başlayır. Qoz 4.50 AZN, qoz ləpəsi isə müxtəlif qiymətlərə satılır, ən ucuzu 5.70 AZN-dir.

Satıcı Əli Məmmədov deyir ki, qiymətlər ötən ilə nisbətən daha ucuz olsa da, alıcı yoxdur. Doğrudan da bir neçə dəqiqə orda durmağıma baxmayaraq, bir müştəri belə gəlmədi. O dükanın yan tərəfində isə balıq satılır. Balığın kilosu 5 manatdır. Balıqlar da olduqca böyükdür. Yəqin biri çox baha başa gələr, deyə düşünürəm.

Sizin üçün böyük marketlərdə də müşahidə apardım. Öncə "Araz"a daxil oldum. Burda ilk ləpə və çərəzlərə baxdım. Bu marketdə kilosu 35 manat olan qoz ləpəsi də var, 12 manat olan da. Yəni çeşid çoxdur, qiymətlər də müxtəlifdir. Digər qiymətlər isə aşağıdakı kimidir:

Badam 1 kq18.68, püstə 1 kq 27.81, portağal 1kq 1.79, pomidor 1 kq 1.79 , dana əti 1 kq 9.49, quzu əti 1 kq 12.49 AZN-a bazarlanıb.

Novruz bayramında xüsusi bəzəklərdən istifadə etmək istəyirsinizə, onların da qiymətinə nəzər yetirin. Məsələn, "Araz"da şəkərbura, buta formasındakı şamlar 99 qəpik, səməni şamları isə 1.35 AZN-dir.

Bunlara göz gəzdirərkən Nərgiz adlı bir tələbə xanımla rastlaşırıq. Qiymətlər haqqında bir neçə sual veririəm. O isə tələbə üçün çox baha olduğunu söyləyir.

Nə isə... Səsinə həsrət qaldığımız, metrodakı xanım demiş, "Növbəti stansiya... " Bravo" supermarketdir".

*Burda çeşid və növ digərinə nisbətən daha çoxdur. Elə girişdən etibarən Novruzla əlaqəli çərəzlər görünür. Gəlin, onların da qiyməti ilə tanış olaq.*

Yerfıstığı 4.99 AZN-dir, qabıqlı badam isə 6.99 AZN. Yerli qoz 6.90, İnnab 3.59-dur. Bununla yanaşı qovrulmuş fındıq 20.45, çöpsüz kişmiş 18.99, sarı kişmiş isə 13.49-dur. Qarışıq ləpənin kilosu 16.59 AZN-dir.

Elə qiymətlərə baxarkən, bir xanım yaxınlaşır. Görünür, bayram üçün bazarlığa gəlib. Söhbət etməyə bir mövzu axtarıram. Xanım məndən öncə davranır və deyir: "Ləpə alacaqsınızsa, Xaçmaz fındığı yaxşıdır. Özü də endirimdədir". Hər halda qiymətlərdən razıdır. Bir xeyli alış-veriş edib, gedir. Mən də marketdə bir az dolanıb çıxıram. Burda isə bayram abhavası olduqca yüksəkdir. Market Novruza aid dekorlar, milli atributlar ilə bəzədilib. Əldə etdiyimiz məlumata görə, yarmarkalarda da vəziyyət təxminən eynidir. **Seçim isə sizə məxsusdur. Bayramınız mübarək!**

**Samirə Ərəblinski**

## Məktəblər diqqətdə olmalıdır

### Şagirdlərlə yanaşı müəllimlər də virusa yoluxa bilər



**Bir müddətdir ki, bərpa olunan məktəblər artıq qapanmya doğru gedir.**

Son bir neçə gün ərzində yoluxma halı müşahidə edildiyi üçün üç-dörd məktəbin yenidən distant təhsilə keçmə xəbəri ilə rastlaşırıq. Təbii ki, məktəblərdə əyani tədrisin bərpa olunması təhsil baxımından əhəmiyyət daşıyır. Lakin bir şagird virus daşısa, valideynlərinin sağlamlığını da təhlükəyə atmış olur. Deməli, sağlamlıq formulu ilə təhsil üz-üzə qalır... Nəzərə almaq lazımdır ki, "kabuslu" sərt karantin dönəminə qayıtmaq ehtimalı var.

**Məsələ ilə bağlı həkim-pulmonoloq Günay Əliyeva "Şərq"ə danışıb:** "İlk başlarda uşaqlarda yoluxma halı müşahidə edilmədiyini düşünürdülər. Sonradan məlum oldu ki, uşaqlar da virusa yoluxa bilər. Yoluxmanın artmasını sadəcə məktəblərə bağlamaq olmaz. Məktəblərin yenidən bağlanma səbəbi sadəcə uşaqların deyil, müəllimlərin də yoluxması ilə əlaqədardır.

Yoluxma halı artsa karantin şərtləri qaçılmazdır. Hazırda nəyisə bağlayıb-açmaq qərarını müvafiq orqanlar verir. Biz müalicə həkimlərinin burada rolu yoxdur".

**Aygün**

## Professor ailələrə səslənib

### "TikTok"da yayılan videolar uşaqların tərbiyəsini pozur




**Son zamanların ən çox müzakirə edilən sosial platformalarından biri - "TikTok" uşaqlara pis nümunə olması ilə bir çox ölkənin gündəmindədir.**

"Şərq" türk mətbuatına istinadən xəbər ki, mütəxəssislər "TikTok'un uşaqlara mənfi təsiri barədə xəbərdarlıqlar ediblər. "SODİMER" Rəhbəri Prof. Dr. Levent Eraslan ailələrə səslənərək "TikTok"da cinsi və təhqiramiz söhbətlərlə dolu videolar olduğunu bildirib.

Bu cür yazıların uşaqlara mənfi təsir göstərəcəyini söyləyən Eraslan, uşaqların "rəqəmsal ayaq izləri"nin diqqətdə saxlanılmasını deyib: "Çin mənşəli "TikTok" son zamanlarda məşhur sosial media tətbiqetmələrindən biridir. İnsanların bir dəqiqəlik, 15 saniyəlik videolarla klip çəkdirdikləri və müxtəlif filtr tətbiqetmələri olan bir proqramdır. Ancaq xüsusilə canlı yayımlarda zərərli maddələrin istifadəsi, küfr, jarqon və xüsusilə cinsi davranışların çox olduğu görülür. Buna görə belə durumda hər kəs bu cür tətbiqlərə qarşı tədbir görməlidir".

**Aygün**

## İlahiyyatçı Hacı Zahir Mirzəvi bıçaqlanıb



**İlahiyyatçı Hacı Zahir Mirzəvi bıçaqlanıb.**

1985-ci il təvəllüdlü Hacı Zahir Mirzəvi kimi tanınan Mirzəli Hacızahir Gülbala oğlu dostları ilə birgə Nərimanov rayonu ərazisində olarkəntanımadığı şəxs tərəfindən bıçaqla vurulub.

Ağır xəsarət alan yaralı xəstəxanaya çatdırılıb. (apa)

*Faktla bağlı Nərimanov rayonu 16-cı polis bölməsində araşdırma aparılır.*

## 30 kq çəki itirib

### Zöhrə Abdullayeva xəstəxanaya yerləşdirildi



**Əməkdar artist Zöhrə Abdullayeva xəstəxanaya yerləşdirilib.**

Sklerodermiyadan əziyyət çəkən sənətçi son günlər 30 kq çəki itirərək tanınmaz hala düşüb. Hacı Nuran sosial media hesabında Zöhrə Abdullayeva ilə fotolarını paylaşaraq bildirib ki, ifaçı yenidən xəstəxanaya yerləşdirilib.

## Dondurulmuş zay toyuq əti aşkarlanıb

### Ekspert AQTA-nın monitorinqlərini müsbət dəyərləndirir



**Artıq bir müddətdir ki, bəzi xarici dövlətlərdən ət və ət məhsullarının Azərbaycana idxalına qadağa qoyulub.**

Bu dəfə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) apardığı nəzarət tədbirləri zamanı "Caspian Catering Supply" MMC tərəfindən Belarusdan ölkəmizə idxal edilən 70 kq dondurulmuş toyuq əti məhsuluna Agentliyin müfəttişləri tərəfindən baxış keçirilib. Baxış zamanı idxal olunan məhsullardan nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim olunub. Müayinələr nəticəsində məhsul partiyasından götürülən nümunələrdə patogen mikroorqanizm olan salmonella aşkar edilib.

**Mövzu ilə bağlı qida təhlükəsizliyi üzrə ekspert Elsəvər Fərzəliyev "Şərq"ə danışıb.**

**O, bildirib ki, AQTA mütəmadi olaraq belə monitorinqlər həyata keçirir:**

"Məhsulun tərkibində toksikoloji maddələr, yaxud mikrobioloji çirklənmə kimi müxtəlif hallar ola bilər. Bunların hamısı qanunla tənzimlənir. Ümumiyyətlə, atılan addımları müsbət dəyərləndirmək lazımdır. Xammalın tərkibi zərərli inqrediyentlərə yoluxubsa, deməli, onların ölkəyə nəinki gətirilməsinə qadağa qoymaq, hətta öncədən gətirilən məhsulları da məhv etmək lazımdır".

**Aygün Tahirqızı**

# Ayaq saxlayın, küçədə gecələyənlər var...



Sosial şəbəkələrdə Dənizkənarı Milli Park, Qız Qalası yaxınlığında bir qadının küçədə, keçiddə, ayaqqoluların yanında gecələməli olduğu, çətin həyat şəraiti ilə üzləşdiyi haqda məlumat paylaşılıb. Həmin qadın tapılaraq müalicəyə göndərilib.

*Kimsəsiz, ehtiyacı olan insanlara yardım göstərilməsində ictimai fəallıq əsas şərtlərdən biridir*

Bu barədə Sosial Xidmətlər Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Murad Həşimov feysbukda yazıb.

"Məlumatı əldə etdiyimiz andan etibarən Sosial Xidmətlər Agentliyinin nümayəndələri qadının qaldığı əraziyə yollandılar. Təəssüf ki, ilkin cəhddə onu paylaşımlarda qeyd edilən yerdə tapmaq mümkün olmadı. Ardından Daxili İşlər Nazirliyi əməkdaşlarının səyi nəticəsində qadın tapıldı. Sosial Xidmətlər Agentliyi əməkdaşlarının da iştirakı ilə aidiyyəti səhiyyə qurumuna müraciət edilməklə lazımi müalicə müəssisəsinə göndərildi", - Həşimov yazıb. O bildirib ki, müalicədən sonra qadının vəziyyəti dəyərləndiriləcək, özünün razılığı olarsa, agentliyin aidiyyəti müəssisəsinə yerləşməsi təmin olunacaq. Həşimov proses barədə narahat olan və xəbər verən hər kəsə təşəkkür edib, məsələyə operativ müdaxilə edən DİN əməkdaşlarına minnətdarlığını bildirib.

**Baş vermiş hadisə ilə bağlı fikirlərini "Şərq"lə bölüşən Vətəndaş Cəmiyyətinə Yardım Assosiasiyası Seçki Qərargahının rəhbəri, professor Məhərrəm Zülfüqarlı qeyd etdi ki, kimsəsiz, ehtiyaclı insanlara yardım göstərilməsində ictimai fəallıq əsas şərtlərdən biridir:**

- Yadınızdadırsa, fevral ayında, qarlı havada küçədə köməksiz vəziyyətdə qalmış bir vətəndaşımız məhz ictimai fəallıq nəticəsində Sosial Xidmətlər Agentliyi tərəfindən sığınacağa yerləşdirildi. Onun barəsində sosial şəbəkədə xəbər yerləşdirilmişdi, fotosu paylaşılmışdı. SXA də fakta reaksiya verdi. İndi də kimsəsiz qadınla bağlı tədbir görülüb. Dünya praktikasında belə hallar var. Kimsəsiz, ehtiyaclı insanlar dövlət tərəfindın himayə olunmaqla yanaşı, onlara dini təsisatlar, ibadət ocaqlarında, məscidlərdə, kilsələrdə sığınacaq verilir, onlar orada qalır, yaşayır və həyatları xilas olur. Bizdə hələ ki, dövlət bu işlə məşğuldur. Məlumdur ki, qocalar evləri, uşaq evləri, pansionatlar var. Amma bəzən elə hallar olur ki, insan hansısa orqana, quruma müraciət edə bilmir. Bu, o şəxsin sağlıq durumu, psixi vəziyyəti ilə də bağlı ola bilər. Bəzən insan öz doğmaları tərəfindən zorakılığa məruz qalır. Onu evdən qovurlar, evsiz-eşiksiz küçələrdə, harda yer tapdı orada gecələmək məcburiyyətində qalır. Azərbaycan xalqının adət-ənənəsində böyüyə, valideynə hörmət möhkəm əsaslar üzərində dayandığından bizdə belə hallar az baş verir. Amma cəmiyyətdə müxətlif insanlar, müxtəlif xüsusiyyətli ailələr də var. Elə insan ola bilər ki, ailəsi, övladları tərəfindən təzyiqə məruz qala bilər, öz hüquqlarını bilməz, özünü müdafiə edə bilməz və həyatın dibinə yuvarlanar. Bu halda cəmiyyətin həmin faktı ictimailəşdirməsi vacibdir. Belə olduqda dövlət orqanlarını məsələyə mütləq cəlb etmək lazımdır. Dövlət orqanları da məsələyə diqqətlə yanaşmalı, araşdırma aparmalı və o insanın nədən, hansı səbəbdən ehtiyaclı vəziyyətə düşdüyünü müəyyənləşdirməlidir. Bəlkə onun hüquqları pozulub. Evi olduğu halda küçədə yaşamağa məhkum edilib? Ombudsman Aparatı da belə məsələlərə həssas yanaşmalıdır. İnsanın psixi pozğunluğu varsa, dispansera yerləşdirilməli, lazımi müalicə alması təmin edilməlidir. Müalicə başa çatdıqda dövlət orqanı tərəfindən dövlət müəssisəsinə yerləşdirilməlidir. Gərək hər bir dövlət orqanı, hər bir vəzifəli şəxs qanunlara riayət etsin, öz səlahiyyətinin nədən ibarət olduğunu bilsin ki, hüquq pozuntusu baş verməsin. Ola bilər o insan hansısa rəsmi orqanamı, ya məhkəməyə zamanında müraciət edib, lakin hüquqları təmin edilməyib. Bilirsiz, insan əli hər yerdən üzüləndə, artıq ümid yeri qalmayanda küçə həyatına, səfil həyata məhkum olur. Cəmiyyət olaraq səfalətə düşmüş insanlarımızı bataqlıqdan çıxarmağı bacarmalıyıq.

**Məlahət Rzayeva**

## İnformasiya bazasının yaradılması effekt verəcək

Bununla şəhid ailələri və qazilərin bürokratik əngəllərlə üzləşməsinin qarşısı birdəfəlik alınacaq



**Azərbaycanda şəhidlərlə bağlı qanuna dəyişiklik edilir. Bununla bağlı "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" qanuna dəyişiklik edilməsi təklif edilir.**

Milli Məclisə təqdim edilən qanunun 2-ci maddəsinə (Şəhid və şəhid ailəsi statusu verilməsinin qaydası) əlavə edilməsi təklif olunan bəndə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) şəhid və şəhid ailəsi statusu almış şəxslərin vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) elektron informasiya sistemində şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrini elektron formada aparır. Şəhid və şəhid ailəsi statusu almış şəxslərin reyestrinin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir. **Mövzuya münasibət bildirən siyasi-şərhçi Azər Həsrət "Şərq"ə açıqlamasında bildirib ki, ümumiyyətlə, bu kateqoriyadan olan şəxslərlə bağlı mükəmməl bir informasiya bazası hazırlanmalıdır. Həmin informasiya bazası da uyğun dövlət qurumları üçün ilk növbədə əlçatan olmalıdır:** "Şəhid ailəsinin üzvü və yaxud da qazilərimiz hansısa bir problemi həll edərkən sənəd dalınca düşməməli, qapılar döyməməlidirlər. Yəni müraciət etdikləri istənilən qurum bir düyməyə basmaqla onlar haqqında bütün məlumatları əldə edə bilməlidir. Təbii ki, bu olduqca vacibdir". A.Həsrət qeyd edib ki, şəhidlər və ailə üzvləri barədə vahid informasiya bazasının yaradılması həqiqətən də ciddi effekt verə biləcək bir addımdır: "Düşünürəm ki, bunu etmək indiki şəraitdə Azərbaycan dövləti üçün çətin deyil. Yəni bizim dövlətimizin imkanları yol verir ki, hazırkı şəraitdə bu məsələni qısa müddət ərzində kökündən həll edə bilsin. Qeyd edim ki, bu, şəhid ailəsi və qazi kateqoriyasına aid edilənlərin bürokratik əngəllərlə üzləşməsinin qarşısını birdəfəlik almaq üçün ən yaxşı çıxış yoludur. Yəni vahid informasiya bazası sayəsində çox qısa müddətdə istənilən məlumatı yerindəcə əldə etmək imkanı bütün dövlət qurumları üçün əlçatan olmalıdır".

**Aynurə Pənahqızı**

# Ailədə isti nəvaziş görəcəklər

Azərbaycanda övladlığa götürmə asanlaşdırılır. Bu, Ailə Məcəlləsində dəyişiklikdə öz əksini tapıb. Milli Məclisin Ailə, qadın və uşaq məsələləri Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, Prezidentin 2018-ci ildə "Övladlığa götürmə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" imzaladığı Fərmana əsasən Ailə Məcəlləsinin övladlığa götürmə ilə bağlı müddəaları təkmilləşdirilib və bu sahədə xidmətlərin aparılması üçün elektron idarəetmə sistemi yaradılıb.

Dəyişikliklər isə övladlığa götürmə ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsinə mühüm töhfə olacaq və əsas məqsəd uşaqların hüquq və maraqlarının qorunması, onların sağlam ailə mühitində böyüməsi üçün etibarlı zəmin yaratmaqdır. Dəyişikliyə görə, uşaqları övladlığa götürmək istəyən qohumları üçün övladlığa götürmə proseduru asanlaşdırılır, bəzi prosedurlar aradan qaldırılır.

**Mövzuya münasibət bildirən "Ailə Dünyası" Ailələrə Hüquqi Yardım İctimai Birliyinin sədri Gülayə Səfərova "Şərq"ə açıqlamasında bildirib ki, övladlığa götürmək istəyən qohumlar üçün övladlığa götürmə prosedurunun asanlaşdırılması çox təqdirəlayiqdir.** G.Səfərova hesab edir ki, yad insanlara verilən uşaqların çox zaman özləri barədə bilgiləri geniş olmur: "Bu da sonda xoş olmayan nəticələrə gətirib çıxarır. Sirr deyil ki, son zamanlar belə uşaqlar televiziyalarda öz ailələrinin axtarışına çıxırlar. Çox zaman müşahidə edirik ki, onlar ümumiyyətlə, özləri haqqında heç bir bilgiyə sahib deyillər. Çünki bu bilgilər illərlə məxfi saxlanılır. Amma qohum tərəfindən götürüləndə, bu, uşaq üçün də rahat olur. Onlar artıq nəsli, ailəsi, ata-anası haqqında ətraflı bilgiyə sahib olurlar. Məsələn, onlara məlum olur ki, valideynləri ya atıb, ya da ki, rəhmətə gediblər. Bir məsələ də var ki, qohumlar övladlığa götürəndə onlar o uşaqlara daha yaxşı sahib çıxırlar. Bu məsələdə gen də mühüm rol oynayır. Yəni uşaqlar o auraya uyğun böyüyür. Bu da uşaqların gələcəyi üçün daha məqbuldur. Bəzən müşahidə edirik ki, hər hansısa bir yad ailə övladlığa uşaq götürür, amma onlarda bu, o qədər də uğurlu olmur. Amma tanıdığım elə ailələr də var ki, uşaq evindən onlar övlad götürüblər və onu özünə uyğun tərbiyə ediblər. Hətta o uşağa ali təhsil də veriblər. Amma hesab edirəm ki, uşaqlar qohum tərəfindən götürülsə, bu, gələcəkdə uşaqların həm fiziki, həm də mənəvi inkişafı üçün daha yaxşı olar. İlk növbədə həmin ailələrdə uşağa qarşı isti münasibət olacaq. Təbii ki, burada hansısa məcburiyyətdən söhbət getmir. Ona görə də qohum tərəfindən övladlığa götürməni müsbət qarşılayıram və bunun daha məqsədəuyğun olduğunu hesab edirəm".



*Uşaqların qohumlar tərəfindən övladlığa götürülməsi daha məqbuldur*

**G.Səfərova əlavə edib ki, ancaq qohumların bir-birinə uşaq verməsini müsbət qarşılamır:** "Bəzən ailələr arasında danışıqlar olur və uşağı olmayana uşaq verirlər. Bu proseduru müsbət qarşılamıram. Çünki həmin ailələr arasında münasibət pozulanda uşaq dərhal ortada bir alətə çevrilir. O baxımdan bunu o qədər də xoş qarşılamıram. Amma doğrudan da normal olacaqsa, o zaman qan daşıyıcılığı müsbət izini buraxacaq".

**Aynurə Pənahqızı**

# Təkcə insanlar qatil deyil

## Tarixdə leyləklərlə qartalların da müharibəsi olub



(Əvvəli səh: 16-da)

**Tarixdə yaşanan yüzlərlə müharibənin bəlkə də ən maraqlısı leyləklərin və qartalların müharibəsidir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hadisə 1934-cü il avqustun 18-də Türkiyənin Aydın, Bursa, Trakya bölgəsini əhatə edən üçbucaqda baş verib. Əfsanəvi müharibənin başlamasının səbəbi isə deyilənlərə görə, 6 qartalın Bursanın Orhangazi bölgəsindəki leylək yuvasına hücum etməsi və orada ana, ata leylək daxil olmaqla bütün övladları öldürməsi olub. Bu hadisədən bir neçə gün sonra qartallar hücum etmək üçün eyni ərazidəki başqa bir yuvaya üz tutublar. Ancaq yuvada heç bir şey tapmayıblar. Çünki leyləklər əvvəlcədən tədbir görərək balalarını əvvəllər qoruduqları əraziyə aparıblar.

Qartalların növbəti hücumunu gözləyən leyləklər hərəkətə keçərək ölkənin hər yerindən toplanmağa başlayıblar. Sanki yüzlərlə leylək intiqam alacağına and içmiş kimi toplaşıb. Leyləklərlə qartalların qarşılaşması uzun bir qanlı müharibəyə səbəb olub. Bu müharibə o zamanlar insanlarda o qədər maraq oyadıb ki, onlar hadisəni böyük maraqla izləyiblər. Hətta insanlar leyləklərə tərəf duraraq silahlarını qartallara qarşı istifadə etməyə başlayıblar. Menderes yaxınlığında çalışan fermerlər 2000-ə yaxın leyləyin müharibədə iştirak etdiyini bildirirdilər. Bundan başqa Germencikin Meli kəndinin Soğukpınar bölgəsində də qartallar ilə leyləklər arasında müharibə olub. Həmin şiddətli döyüşdə 29 leylək və 33 qartal ölüb.

Ümumiyyətlə, leylək-qartal müharibəsi zamanla kənddə gündəlik problem halına gəlib. Bandırma və Balıkesir bölgələrində leylək və qartal müharibəsi nəticəsində leyləklər daha çox itkiyə məruz qalıb. Daha sonralar leyləklər arasında bu fəlakətli məğlubiyyətin acı nəticələri ortaya çıxmağa başlayıb. Çünki Eyipin yaxınlığında yuvalarına qayıdan leyləklərin yüzdə otuzu artıq yox idi. Hətta bir çox leylək balası yetim qalmışdı. Eyip xalqından bəziləri bu bala leyləklərin yeməyini özləri təmin edirdi.

**Aynurə Pənahqızı**

## "Nar" onlayn təhsil alanlar üçün "TƏHSİL+" internet paketinin müddətini uzadıb




**"Nar" pandemiyanın davam etməsi ilə əlaqədar olaraq şagird, tələbə və müəllimlərin dərslərə onlayn qoşulması üçün təqdim etdiyi "TƏHSİL+" internet paketinin müddətini uzadıb.**

Aprelin sonuna qədər istənilən məkandan rahatlıqla "Microsoft Teams" və "Zoom" tətbiqlərindən heç bir sürət limiti olmadan, istər tətbiq, istərsə də veb-brauzer üzərindən istifadə etmək mümkündür.

*Qeyd edək ki, paket abunəçilərə hər iki tətbiqdən istifadə üçün sürət limiti olmayan 50GB təqdim edir. Paketin qiyməti 10 AZN təşkil edir. Sərfəli internet paketindən yararlanmaq üçün abunəçilər *777#21# kodunu yığa və ya 777 nömrəsinə "T+" açar sözünü göndərərək paketi aktivləşdirə bilərlər. "TƏHSİL+" internet paketi haqqında ətraflı məlumat http://www.nar.az/tehsil-plus/ səhifəsindən əldə etmək olar.*

## "Təb də insan kimi yaşlanır"

### Aydın Sani meyxanadan uzaqlaşmağının səbəbini açıqlayıb



**Tanınmış meyxanaçı Aydın Sani ARB TV-nin "Bazar Düzü" verilişində qonaq olub.**

O, meyxanadan uzaqlaşmağının səbəblərini "Şərq"ə açıqlayıb: "Elə bir dönəmə düşmüşdüm ki, məndən 5-10 yaş balaca uşaqlar çox iti təblə meyxana deyirdilər. Gördüm ki, nəfəs çatdıra bilmərəm. Çünki yaş artdıqca, təb də qocalır. Məsələn, 25 yaşında bir şeiri iki-üç saata hazırlaya bilirsənsə, 40 yaşda elə deyil. Bu, sübut olunub. Oxuduqlarıma, bildiklərimə, müəllimlərimdən öyrəndiklərimə görə deyirəm ki, təb də insan kimi yaşlanır".

**Samirə Ərəblinski**

## Ulusoyun performansı səs yaratdı

### "Kağızdan Həyatlar" qısa müddətə "Twitter"də trend olub



**Çağatay Ulusoyun baş rolda oynadığı "Kağızdan Həyatlar" filmi martın 12-də "Netflix"də yayımlanıb.**

"Şərq" xəbər verir ki, Ç.Ulusoyun bacarıqlı aktyorluq performansı və filmin mövzusu qısa müddətə "Twitter"də trend olub. Filmi izləyənlər Ulusoyun performansına səssiz qala bilməyib minlərcə paylaşım edib.

*Filmin mövzusu nədir?*

Mehmet kağız toplayaraq çörəkpulu qazanan bir gəncdir. Həyatında ona ən çox dəstək olan insan Tahsin Babadır. 8 yaşlı Əli ilə görüşdükdən sonra Mehmetin həyatında bəzi dəyişikliklər olur. Əlini ailəsinə qovuşdurmaq istəyən Mehmet onunla duyğusal bir bağ quracaq.

**Aygün**

## Serialda növbəti ayrılıq yaşanacaq



**Reytinqlərdə ilk sırada yer alan "Mucize Doktor" serialında növbəti ayrılıq yaşanacaq.**

Axşam.az xəbər verir ki, baş rolları Taner Ölməzlə Onur Tunanın paylaşdığı ekran işinə bu həftə aktrisa Ezgi Asaroğlu vida edəcək.

*Qeyd edək ki, Ezgi serialda həkim obrazına həyat verirdi.*

# Düşünmək belə dəhşətlidir

## Hər kəs gətirdikləri gəlincikləri ağaclara asırlar



Ağac budaqlarından asılmış yaşlı və çürüyən körpələrlə dolu bir ada, hətta bu barədə düşünmək də dəhşətlidir. Bəhs etdiyimiz yer La Isla de Las Munecas "Körpələr Adası"dır. Qaranlıq və əsrarəngiz keçmişi ilə həqiqətən qorxu dolu bir yerdir.

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, "Körpələr Adası" hekayəsi Don Julian hekayəsi ilə sıx bağlıdır. Meksikanın Xochimilco qəsəbəsindən olan Don Julian 20-ci əsrin ortalarında arvadını və ailəsini tərk edərək Teshuilo gölündə bir adada tək yaşamağa başlayıb. Bura köçdükdən bir müddət sonra qorxunc bir hadisə ilə qarşılaşıb: göldə boğulmuş bir qız cəsədi. Qızın yanında isə bir kukla da tapıb. Ehtimal ki, bu, elə həmin qızcığaza məxsus olub. Don Julian kuklanı götürüb və mərhum qızın ruhunu xatırlamaq üçün bir ağacın üstünə asıb. Bu andan etibarən özünü adanın qoruyucusu kimi görən adam bir kuklanın yetərli olmadığını düşünüb. Növbəti 50 il ərzində müxtəlif yerlərdən topladığı kuklaları ağacların üstünə asmağa davam edib. Zibilliklərdən, kanallardan və hətta zamanla kukla bağışlayan insanlardan da toplayaraq adanı bugünkü vəziyyətinə gətirib. Bəzi kuklalar bütövlükdə asılıb, bəziləri isə hissələri ilə. Çünki hissələri itkin olduğu üçün başsız və ya bədənsiz asılıblar. Bütün bu hərəkətlər psixoloji cəhətdən sağlam bir insanın edəcəyi kimi görünmür və əslində onların gerçəkliyində də bəzi şübhələr var. Ən böyük sual işarəsi, boğularaq öldüyü iddia edilən qızın hekayəsinin doğru olub-olmamasıdır. Don Julianın tərk edilmiş ailəsi də daxil olmaqla bir çox insan ölən qızı tam bir xəyal hesab edir. Qızın var olub-olmadığı məlum deyil, amma aydın olan budur ki, Don ömrünün çox hissəsini ona həsr edib. Don Julianın ölümü belə qızın ölümü ilə eyni idi. Onun cəsədi "Donun qızı tapdığını iddia etdiyi kanalda" kimi boğulmuş formada tapılıb. Bu hadisədən sonra bölgəyə minlərlə turist axın etməyə başlayıb. Dünyanın bir çox yerindən gələn turistlər gəlinciklər gətirib ağaclara asırlar. Hələ də Don Julian və onun körpəsinə (gerçək və ya yox) kuklaları asaraq hörmət etməyə davam edirlər və ruhlarını xatırlayırlar.

**Aynurə Pənahqızı**

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**
**KURSLAR**
**-MÜHASİBAT** (2 AY)
**-Mobil telefonların təmiri** (3 ay)
**-KOMPYUTER** (1-3 AY)
**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)
**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)
**-Dizayn** (3-6ay)
**-Masaj** (3 ay)
**-Biçmə - Tikiş** (3 ay)
**-Psixologiya və Para psixologiya** (3-12 ay)
**Tel: (012) 566-88-96**
**(012) 489-08-84**
**Mob: (070) 241-28-67**
**www.az-baku.com**

Baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd
Reportyorlar qrupu: Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
Texniki heyət: Rüfət Dadaşov, İmamcan Əliyev
Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru
Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073
Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 516

# Təkcə insanlar qatil deyil

## Tarixdə leyləklərlə qartalların da müharibəsi olub



**Tarixdə yaşanan yüzlərlə müharibənin bəlkə də ən maraqlısı leyləklərin və qartalların müharibəsidir.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, hadisə 1934-cü il avqustun 18-də Türkiyənin Aydın, Bursa, Trakya bölgəsini əhatə edən üçbucaqda baş verib.

*(Davamı səh: 15-də)*

# Dünyanın ən bahalı ətri...

## Qiyməti 1 milyon 300 min dollardır



**Dünyanın ən bahalı ətri kosmik qiymətə satılır. 3 litrlik, 1,97 metrlik flakonun qiyməti 1 milyon 300 min dollardır.**

Medicina.az xəbər verir ki, Dubay istehsalı Nabell Shumukh adlı ətrin flakonun altında xüsusi pedal var və hər kişinin boyuna uyğun yuxarı qalxır.

*Flakin qızıl, mirvari, brilyant, topazlarla işlənib. Ətrin notları şərq notlarıdır, tərkibi tamamilə təbii, qatqısız, spirtsizdir.*

# Bütün bədəni iflic olan qız gözləri ilə kitab "yazır"

## Özlem hər şeyi başa düşür, anlayır



**Türkiyədə 18 yaşlı Özlem Ozalkan gözləri ilə hərfləri seçib cümlələr qurmaqla əsər yazır.**

Onun artıq ilk kitabı nəşr olunub. Medicina.az xəbər verir ki, 9 il əvvəl ağır xəstəlik olan bas - yan amiotrofik skleroz diaqnozu qoyulan Özlümin getdikcə bütün bədəni iflic olur və o yatağa məhkum olur. Bu xəstəlik nadir rast gəlinir. Bu zaman xəstənin zehni, yaddaşı, bütün əqli qabiliyyəti qalır, bəzi xəstələr danışa bilir, bəziləri isə danışa da bilmir. Cihaza bağlı olaraq yaşayan xəstələrin ömrü uzun da ola bilər. Özlem ancaq gözləri ilə ünsiyyət qurur, hər şeyi başa düşür, anlayır. Yatağa məhkum gənc qız ömrünü hədər keçirməmək üçün şeirlər, hekayələr, kitab yazmağa başlayır. Bunun üçün onun qarşısına hərflər olan xüsusi cihaz lövhə qoyulur və onun gözlərinin hərəkətindən sensor hərfləri seçib, cümlələri qurur. *Artıq o bu metodla bir kitabını yazıb. Kitabın satışından əldə olunan gəlir yetimlər üçün ucqar yerlərdə su quyularının qazılmasına sərf ediləcək.*

# Toylarından çox geyimləri səs-küy yaratdı



**Aktyor Ahmet Rıfat Şungar sevgilisi Esra Gülmen ilə nikah masasına oturub.**

Axşam.az xəbər verir ki, cütlüyün toyundan çox geyimləri müzakirələrə səbəb olub. Onlar fərqli dizaynda hazırlanan gəlinlik bə kostyumdan istifadə ediblər.

Ahmet və Esra toy üçün Büyükadanı seçiblər. Yaxın dostları nikahda onları tək qoymayıblar. Sevgililər toy tortu əvəzinə midye yeyiblər.

*Fotolarını sosial şəbəkədə yayımlayan cütlüyün geyimi tənqid edilib.*




# Gələcəkdə insanlar tamam dəyişəcək

## İnsan ağlı kompüterə, şüurumuzdakılar isə internetə köçürüləcək





**"Scientific American" jurnalı dünyanın qabaqcıl alimlərinə insanların gələcəkdə necə olacağına dair suallar verib. "Şərq" xarici mətbuata istinadən xəbər verir ki, onların verdikləri cavablar hər kəsin marağına səbəb olub.**

Google mühəndisliyi rəhbəri Ray Kurzvei bildirib ki, parkinson xəstələri və kar insanlar beyinlərinə yerləşdirilən implantlardan onsuz da hazırda faydalanırlar: "2030-cu illərdə bu tətbiq geniş vüsət alacaq. Hətta kompüterlər o qədər kiçik olacaq ki, kapilyarlar vasitəsilə beynimizə asanlıqla daxil ediləcəklər". Klivlend Təbiət Tarixi Muzeyinin paleoantropoloqu Yohannes Haile-Selassie bildirib ki, təkamül fasiləsiz bir prosesdir: "Bu səbəbdən də insanlar yer üzündəki bütün həyat formaları kimi inkişaf edir və inkişaf edəcəklər. Önümüzdəki 1000 ildə bəşəriyyətin süni zəka ilə rəqabət aparmasının yeganə yolu texnologiya ilə birləşmək olacaq. Yəni insan ağlını kompüterlərə köçürmək, şüurumuzdakıları internetə köçürmək mümkün olacaq. İnsanlar daha böyük alna, böyük buruna, çox iri gözlərə və daha hamar bir rəngə sahib olacaqlar. Elm adamları artıq insan baxışlarını bir-birindən ayıran genomları düzəltmək üçün çalışırlar. Hətta gələcəkdə valideynlər övladlarının görünüşünü belə seçə biləcəklər".

**Aynurə**

# Ölmüş arı güclü dərmandır

## Qanı təmizləyərək bütün orqanizmi cavanlaşdırır



**Qədimdə təbiblər ölmüş arını çox güclü dərman sayıblar. Alimlər aşkarlayıblar ki, onun tərkibində faydalı maddələr - vitaminlər, züllalar, melanin maddələr var. Ən qiymətli maddələr - iltihablaşma prosesini boğan, qan təzyiqini normallaşdıran və damarları möhkəmləndirən heparin və heparoidlər isə ölü arının xitin örtüyündə, yəni zirehindədir.**

Arı ölüsü bakteriyaların qənimidir. Fransada onunla ekzema, psoriaz, qurdeşənəyi, hətta epilepsiyanı müalicə edirlər. Son dövürlərdə bu dərmanla kişi xəstəliklərini də sağaltmağa başlayıblar. Arı ölüsü adenoma və prostat xərçəngi yarananda da köməyə gəlir.

Arı ölüsü immuniteti yüksəldir, qanı təmizləyərək bütün orqanizmi cavanlaşdırır. Həmçinin, iltihab, yanıq və yaralarda, bərxulmalarda, dəri problemlərində də istifadə olunur. Buna görə də müxtəlif xəstəlikləri önləmək üçün yaşı qırxı aşanların bu möcüzəli dərmanı ildə iki dəfə qəbul etmələri faydalıdır.

Müalicə üçün arının bütün ölüsü deyil, yalnız yaxşı qalan hissəsi istifadə edilir. Ölmüş arı tamamilə təzə, quru, kifsiz və iysiz olmalıdır. Qışlama zamanı ölmüş və pətəyin dibində qalmış cəsədlər müalicəyə yararlıdır. Arı ölüsünü əvvəlcə aşsüzənlə ələmək lazımdır ki, zibildən təmizlənsin. Sonra onu elektirik sobasında, yaxud adi sobada 40-45 dərəcə istiliklə qurutmaq lazımdır. Ondan sulu məhlul, həlim və spirtli cövhər hazırlamaq mümkündür.

**İsmayıl**

# Beyons rekord qırdı

## O, "Ən yaxşı mahnı" kateqoriyasında da qalib olub



**Amerikalı müğənni Beyons "Grammy" mükafatları tarixində qadınlar arasında ən çox nominasiya qazanaraq rekord qırıb.**

63-cü mərasim zamanı müğənninin "Brown Skin Girl" mahnısına çəkilən klipi "Ən yaxşı musiqili video" nominasiyasında, eləcə də "Black Parade" mahnısı "R&B janrında ən yaxşı mahnı" kateqoriyasında qalib olub.

Onun rep müğənnisi Meqan Thee Stallionla birgə ifası olan "Savage" "Ən yaxşı rep mahnı" mükafatına layiq görülüb.

İndi Beyonsun 28 "Grammy" mükafatı var və bununla da o, Elison Kraussun rekordunu qırıb. 2010-cu ildə 52-ci "Grammy" mükafatlarında Beyons bir il ərzində 10 nominasiya üzrə qalib olmuşdu.